HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 47 (889) ■ 7 dekabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Əfqanıstan Prezidentinin Azərbaycana işgüzar səfəri

**Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək görüşü olub.**



Pakistan Prezidentinin Azərbaycana səfərindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirib, bu səfərin qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Məhəmməd Əşrəf Qani qeyd edib ki, Azərbaycan Əfqanıstanda sülhün təmin olunmasına böyük dəstək verir. Ölkələrimiz arasında yaxşı gələcəyi olan əlaqələr qurulub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədlərinin imzalanması mərasimi olub. «Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında iqtisadi-ticarət sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş», «Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Əfqanıstan İslam Respublikasının Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq mühafizə fəaliyyəti sahəsində Saziş», «Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında hava xidmətləri haqqında Saziş» sənədləri imzalanıb.

Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı bildirib ki, dost və tərəfdaş ölkə kimi Azərbaycan bu inkişaf yolunda Əfqanıstanla çiyin-çiyinə dayanmaqdan fəxr edir: «Ölkələrimiz arasındakı diplomatik münasibətlərin tarixinə nəzər salsaq, hazırda əməkdaşlığımız ən yüksək səviyyədədir. Bizim gözəl siyasi əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına uyğun həll edilməsi məsələsində Əfqanıstanın ədalətli mövqeyinə görə minnətdarıq. Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda Əfqanıstanı dəstəkləyir. Biz Qətiyyətli Dəstək Missiyasının iştirakçısıyıq. Biz multimodal tranzit və hava məkanımızdan istifadəni təmin edirik. Qərar qəbul etmişik ki, Əfqanıstanda xidmət aparan hərbçilərimizin sayını artıraq və bununla da Əfqanıstanda sabitlik, sülh və inkişafa töhfə verək».

> **Azərbaycan Əfqanıstanda təhlükəsizliyin təmin olunması ilə yanaşı, ölkədə həyata keçirilən nəqliyyat, infrastruktur layihələrində də yaxından iştirak edir**

Prezident Məhəmməd Əşrəf Qani bəyanatında çətin anlarda Azərbaycanın həmişə ölkəsinə dəstək olduğunu xüsusilə qeyd edib. Vurğulayıb ki, təhlükəsizliyin təmin olunması ilə yanaşı, Azərbaycan Əfqanıstanda nəqliyyat, infrastruktur layihələrinin həyata keçirilməsində də yaxından iştirak edir: «Biz Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli, əsaslı mövqeyini daim tam dəstəkləyəcəyik. Dəstək verməyə hər zaman hazırıq. Biz hərbi qulluqçularınızın sayının artırılması ilə əlaqədar bu yaxınlarda Brüsseldə bəyan etdiyiniz qərarı çox yüksək qiymətləndiririk. Azərbaycan hərbçiləri mübarizdirlər, şərəflə xidmət edirlər».

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin birgə işçi naharı olub.

## M.Ç.Cabbarovun Azərbaycan Respublikasının vergilər naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mikayıl Çingiz oğlu Cabbarov Azərbaycan Respublikasının vergilər naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2017-ci il.*

## Prezident İlham Əliyev Aİ nümayəndələrini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 4-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə yeni təyin edilmiş xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Bakıya ilk dəfədir gəldiyini və burada şahidi olduğu inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını deyən Toivo Klaar Azərbaycan ilə daha yaxından tanış olmaqda maraqlı olduğunu vurğulayıb. Dövlətimizin başçısı Toivo Klaarın Azərbaycana, o cümlədən ölkəmizin regionlarına gələcəkdə də tez-tez səfərlər edəcəyinə ümidvar olduğunu bildirib və ona fəaliyyətində uğurlar arzulayıb.

## Qarşılıqlı iş birliyi sabitliyə və iqtisadi inkişafa töhfə verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanın və Türkiyənin regional əməkdaşlığa verdiyi töhfəyə toxunaraq üçtərəfli əməkdaşlıq formatlarında ölkələrimizin iştirak etməsinin önəmini qeyd edib.

Mövlud Çavuşoğlu gələcəkdə Azərbaycanın Türkiyə ilə birgə həyata keçirəcəyi böyük layihələrin önəmini qeyd edib, hər iki dövlət başçısının liderliyi sayəsində ikitərəfli münasibətlərimizin bütün sahələrdə durmadan inkişaf etdiyini vurğulayıb, hər iki ölkənini iştirakı ilə üçtərəfli formatda həyata keçirilən iş birliyinin regional və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə, bölgədə sabitliyin və iqtisadi inkişafın genişləndirilməsinə xidmət etdiyini bildirib.

## «Bakutel-2017» sərgisi mühüm beynəlxalq tədbirə çevrilib

Dekabrın 5-də Prezident İlham Əliyev Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Çjaonu qəbul edib. Dövlətimizin başçısı XXIII «Bakutel-2017»də dünyanın bir çox ölkələrindən 190-dan artıq şirkətin iştirak etdiyini bildirərək, qurumun baş katibinin də bu münasibətlə paytaxtımıza gəlişinin sərginin mühüm beynəlxalq tədbirə çevrilməsinin göstəricisi kimi dəyərləndirib.

Houlin Çjao sərginin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq, Azərbaycanda son illər rabitə və informasiya-kommunikasiya sahələrində nailiyyətlər əldə olunduğunu qeyd edib, rabitə və informasiya-kommunikasiya sahəsində bir sıra layihələrlə tanış olduğunu və bunların reallaşacağına əminliyini bildirib.

## Sülhün, təhlükəsizliyin, iqtisadi inkişafın təmin olunması naminə...

**Bakıda «Asiyanın Qəlbi – İstanbul Prosesi» çərçivəsində «Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda 7-ci nazirlər konfransı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani konfransda iştirak ediblər.**




Konfransı açıq elan edən Əfqanıstanın xarici işlər naziri Səlahuddin Rabbani çıxışında bu tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirərək konfransın regionda sülhün və tərəqqinin təbliği ilə bağlı qarşıda duran hədəfə çatmağa imkan verəcəyinə əminliyini ifadə edib. O, Asiyanın qəlbi olan regionda sülhün və əmin-amanlığın təmin edilməsi baxımından qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinin vacibliyini diqqətə çatdırıb. Terrorla mübarizədə etimadın yaradılması tədbirlərinə rəhbərlik edən ölkələrin proqram və layihələrini həyata keçirməklə bağlı fəal rolunu xüsusi vurğulayan məruzəçi 2011-ci ildən başlayan bu prosesin artıq 7-ci dəfədir reallaşdığını, gələn il tədbirin Türkiyədə keçiriləcəyini xatırladıb.

Konfransda nitq söyləyən dövlətimizin başçısı bildirib ki, Azərbaycan «Asiyanın Qəlbi - İstanbul Prosesi»ni Əfqanıstanda sülhün, barışığın, təhlükəsizliyin və iqtisadi inkişafın əldə edilməsi istiqamətində dialoq və əməkdaşlıq üçün dəyərli mexanizm hesab edir: «2012-ci ildə prosesə qoşulandan bəri biz bu çoxtərəfli platformada fəal şəkildə iştirak etməkdəyik. Beynəlxalq hüququn norma və prinsiplərinə hörmət və riayət edilməsi, xüsusilə suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, suveren bərabərliyə hörmət və daxili işlərə qarışmama regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində təməl olmaqla, sabitlik və yəqinlik təmin edir».

Prezident İlham Əliyev Ermənistanın ölkəmizə hərbi təcavüzündən bəhs edərək bildirib ki, Azərbaycan ərazisinin beşdəbir hissəsinin davam etməkdə olan işğaldan və yüz minlərlə vətəndaşının məcburən öz torpaqlarından qovulmasından əziyyət çəkən ölkə kimi sülh, təhlükəsizlik və sabitliyin dəyərini tam anlayır: «Ermənistan 20 ildən çoxdur ki, Azərbaycanın təqribən 20 faiz ərazisini - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin prezidentləri bir neçə dəfə bəyan ediblər ki, status-kvo dəyişdirilməlidir, bu, qəbuledilməzdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir».

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan Əfqanıstanın qarşısında duran çağırışların öhdəsindən gəlməsində onu dəstəkləyən birinci və ən fəal ölkələr sırasındadır. «Biz ikitərəfli səylər və eləcə də çoxtərəfli platforma çərçivəsində fəal iştirakımızla Əfqanıstanda ölkənin sabitliyinə, sülh şəraitində yenidənqurma və inkişafına yardım işinə sadiq olaraq qalırıq. Əfqanıstanın rifahı və tərəqqisi iqtisadi artım və regional əməkdaşlıq məsələləri ilə qarşılıqlı şəkildə bağlıdır və regionun ümumi təhlükəsizlik mühitindən asılıdır. Çox önəmlidir ki, Əfqanıstanın yenidən qurulması və iqtisadi inkişafı məsələlərinə səylərimizin yönəldilməsi ilə yanaşı, biz ölkənin indiyədək əldə etdiyi tərəqqini qoruyub saxlamaq üçün Əfqanıstanın üzləşdiyi təhlükəsizlik çağırışlarını həll etməkdə davam edirik. Belə ki, terrorizm, radikal ekstremizm və separatizmin bütün forma və ifadə vasitələrindən qaynaqlanan təhlükəsizlik təhdidləri ilə mübarizədə birgə səylərimizin davam etdirilməsi və bu məqsədlə regional əməkdaşlığın artırılması vacibdir. Azərbaycan ikitərəfli müstəvidə, eləcə də idarəçilik, hərbi, hüquq mühafizə və minaların təmizlənməsi sahələri üzrə təlimlər vasitəsilə Əfqanıstanla öz təcrübəsini bölüşməyə sadiqdir. Biz Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələrindən (İSAF) sonrakı Qətiyyətli Dəstək Missiyasına (RSM) qüvvə, multimodal tranzit, təlim və maliyyə yardımı təchiz etməklə töhfə veririk».

Prezident İlham Əliyev şəffaf, korrupsiyaya və rüşvətə dözümsüz olan Azərbaycanın Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - «ASAN xidmət»in Əfqanıstanla fəal şəkildə əməkdaşlıq etdiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan, Əfqanıstan, Gürcüstan, Türkiyə və Türkmənistan tərəfindən bu yaxınlarda imzalanmış Lapis-Lazuli razılaşması Əfqanıstanı birbaşa Avropa ilə əlaqələndirəcək başlıca beynəlxalq, ticarət və nəqliyyat dəhlizi razılaşmasıdır. Bu, Əfqanıstanın Avrasiya boyu ticarəti artırmaq üçün infrastrukturun qurulması və təkmilləşdirilməsi vasitəsilə bağlılığa nail olmaq səylərində əldə olunmuş mühüm mərhələdir.

### BU NÖMRƏMİZDƏ

PREZİDENT İLHAM ƏLİYEV «BAKUTEL-2017» SƏRGİSİ İLƏ TANIŞ OLUB 2

AZƏRBAYCANIN ŞƏHƏR VƏ RAYONLARI ÖZ GƏLİRLƏRİ HESABINA MALİYYƏLƏŞƏCƏK 3

ÖZÜMƏŞĞULLUQ PROQRAMININ ƏHATƏ DAİRƏSİ GENİŞLƏNİR 4

SƏNAYE MƏHƏLLƏLƏRİ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA MÜHÜM ROL OYNAYIR 5

# Prezident İlham Əliyev «Bakutel-2017» sərgisi ilə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Bakı Ekspo Mərkəzində XXIII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi - «Bakutel-2017» ilə tanış olublar.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verib. Bildirilib ki, builki sərgidə dünyanın 20 ölkəsini təmsil edən 192 şirkət iştirak edir. Onların arasında Azərbaycan, Amerika Birləşmiş Ştatları, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Finlandiya, Fransa, İsveç, Niderland Krallığı, Türkiyə və digər ölkələr var. İştirakçılar arasında aparıcı İKT şirkətləri, mobil operatorlar, rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və tanınmış brendlərin distribüterləri yer alıb. Sərginin 40 faizi «Bakutel»in daimi eksponatlarından ibarətdir. Builki sərginin iştirakçılarının 30 faizi debütantlardır.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva sərgidə nümayiş etdirilən pavilyonlarla tanış olublar. «Bakutel-2017» sərgisi ilə tanışlıq zamanı Prezident İlham Əliyev «Euronews» və «Rossiya-24» telekanallarının suallarını cavablandırıb.



## Yanvar-oktyabr aylarında 134.566 vergi ödəyicisi qeydiyyata alınıb

Cari ilin yanvar-oktyabr aylarında ölkə üzrə cəmi 134.566 vergi ödəyicisi qeydiyyata alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 28.961 vergi ödəyicisi və ya 27,4% çoxdur. Qeydiyyata alınanlardan 9864-ü hüquqi, 124 702-si fiziki şəxslərdir. Hüquqi şəxslərin qeydiyyatında artım 48,0% təşkil edir.

2017-ci ilin 10 ayı ərzində yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin sayının cəmi fəaliyyətini dayandırmış və ləğv edilmiş vergi ödəyicilərinin sayının cəmindən 18.028 ədəd çoxdur, yəni biznes fəaliyyəti ilə məşğul olanların sayında əhəmiyyətli artım vardır.

Cari ilin ötən 10 ayı ərzində 9864 hüquqi şəxs qeydiyyata alınmış, 6499 hüquqi şəxs isə fəaliyyətini bərpa etmişdir ki, bu da 2016-cı ilin müvafiq göstəricilərindən xeyli çoxdur.

2017-ci ilin yanvar-oktyabr ayları ərzində yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş hüquqi şəxslərin ümumi sayı ləğv edilmiş və fəaliyyətini dayandırmış hüquqi şəxslərin ümumi sayından 5429 say çoxdur. Fiziki şəxslərə münasibətdə də eyni müsbət dinamika müşahidə olunur. Diqqətəlayiq haldır ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin ötən 10 ayı ərzində ləğv edilmiş hüquqi şəxslərin sayı 47,2% azalmışdır.

Eyni dövr ərzində, hüquqi və fiziki şəxslərə məxsus olan, yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş obyektlərin ümumi sayı fəaliyyətini dayandırmış və ya ləğv edilmiş obyektlərin ümumi sayına nisbətən 17.291 say çoxdur. Ötən ilin eyni dövrü ilə müqayisədə obyektlərin ümumi sayı 14.864 say, yaxud 7,1 dəfə, o cümlədən hüquqi şəxslərə məxsus obyektlərin sayı 3266 say və ya 3,6 dəfə, fiziki şəxslərə məxsus obyektlərin sayı isə 11.598 say və ya 11 dəfə artmışdır.

Cari ilin əvvəlindən etibarən Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin 759-u xarici investisiyalı şirkətlərdir. Cari ildə qeydiyyata alınmış vergi ödəyiciləri arasında Türkiyə, İran İslam Respublikası, Pakistan İslam Respublikası, Rusiya Federasiyası və s. ölkələrin şirkətləri üstünlük təşkil edir.

Bazar iqtisadiyyatında müəssisələrin bağlanması və yenilərinin açılması, vergi ödəyicilərinin fəaliyyətini dayandırması və ya ləğv olunması ilə yanaşı yeni vergi ödəyicilərinin qeydiyyata alınması və fəaliyyətini müvəqqəti olaraq dayandırmış vergi ödəyicilərinin fəaliyyətini bərpa etməsi adi, normal və hər gün baş verən daimi bir prosesdir. Bu prosesin bir tərəfini qabardıb, digər tərəfini göstərməmək ya qərəzli münasibətin, ya da qeyri-peşəkarlığın göstəricisidir.

Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (İOTA) və MDB ölkələri vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının daimi üzvü olan Azərbaycan Respublikasının Vergilər Nazirliyi həm bu beynəlxalq təşkilatlar çərçivəsində, həm də müstəqil şəkildə vergi qanunvericiliyi və vergi inzibatçılığı sahələrində mövcud olan ən qabaqcıl təcrübələri həmişə öyrənərək ölkəmizin iqtisadi inkişaf konsepsiyasına uyğun olanları öz işinə tətbiq etdiyindən, bu gün Azərbaycan həm regionun, həm də Avropanın ən qabaqcıl vergi inzibatçılığına malik olan ölkələrindən biridir. Gürcüstanın və digər qonşu ölkələrin vergi siyasəti də daim izlənilir və əgər onların təcrübəsində diqqətəlayiq layihələr olarsa, onlar da nəzərə alınacaqdır.

Onu da xatırladırıq ki, əmək haqlarının, pensiyaların, eləcə də dövlət büdcəsində nəzərdə tutulan digər xərclərin artması büdcənin gəlirlərinin artırılmasını tələb edir ki, bu da əsasən vergilərdən asılıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsində göstərildiyi kimi, hər kəs dövlət tərəfindən müəyyən olunmuş vergiləri vaxtında və tam həcmdə dövlət büdcəsinə ödəməlidir. Müasir dövrümüzdə vergilər yığılmır, vergi ödəyiciləri tərəfindən hesablanıb dövlətin büdcəsinə ödənilir. Vergi qanunvericiliyinin icrasına nəzarət isə dövlət vergi orqanlarına həvalə edilmişdir.

Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üçün böyük vergi güzəştləri və azadolmalar sistemi mövcuddur. Dünya Bankının «Doing Business» hesabatına əsasən, biznesin qeydiyyata alınmasının sadəliyinə görə Azərbaycan dünyanın ilk 20-liyinə daxildir, vergi sisteminin sadəliyinə görə isə 35-ci yerdə qərarlaşıb.

## Azərbaycan Respublikası Vergilər Nazirliyinin məlumatı

Son günlər kütləvi informasiya vasitələrində ölkə ərazisində göstərilən taksi xidmətlərinə görə 18 faiz dərəcə ilə əlavə dəyər vergisinin (ƏDV) hesablanması ilə bağlı məlumatlar yer alıb. Bununla əlaqədar Vergilər Nazirliyi bildirir ki, Azərbaycan Respublikasında qanuni əsaslarla taksi fəaliyyəti ilə məşğul olan şəxslərin göstərdikləri sərnişindaşıma xidmətləri ƏDV-yə cəlb edilməyən xidmətlərdir və bu xidmətlərin istehlakçısı olan vətəndaşlar taksi xidmətlərinin dəyərini ödəyərkən həmin məbləğə ƏDV daxil edilmir.

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş vergi qanunvericiliyinə edilmiş dəyişikliyə əsasən, yalnız Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentin elektron ticarət qaydasında təqdim etdiyi iş və xidmətlərə görə vergi orqanında uçotda olmayan şəxslər tərəfindən ödənişlər həyata keçirilərkən qeyri-rezidentə aparılan ödəmələrdən ƏDV tutulur.

Qanunvericiliyə edilmiş dəyişikliyə uyğun olaraq, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmadan müxtəlif elektron informasiya sistemləri, o cümlədən mobil tətbiqetmələr vasitəsilə ölkə ərazisində minik avtomobilləri ilə sərnişindaşıma fəaliyyətini təşkil edən xarici şirkətlərin (UBER, Taxify və s.) elektron ticarət qaydasında göstərdikləri xidmətlər cari ilin yanvar ayının 1-dən ƏDV-yə cəlb edilir. Respublika ərazisində taksi xidmətlərinin təşkili ilə bağlı həmin xarici şirkətlərin göstərdikləri xidmətlərinin dəyəri ƏDV daxil olmaqla formalaşan dəyərdən ibarət olduğundan, bu xarici şirkətlərə pul köçürülərkən həmin məbləğlərə ƏDV də daxil edilir.

Dövlət vergi orqanlarında qeydiyyata alınaraq ölkə ərazisində qanuni əsaslarla sərnişindaşıma fəaliyyətini həyata keçirən yerli hüquqi və fiziki şəxslərin, habelə xarici şirkətlərin Azərbaycan Respublikasındakı nümayəndəliklərinin göstərdikləri taksi xidmətlərinin müqabilində müştərilər tərəfindən istər nağd qaydada, istərsə də ödəniş kartları vasitəsilə həmin şəxslərə ödənilən xidmət haqlarına görə ƏDV tutulmur.

## Vergi ödəyiciləri məlumatlandırılır

Vergilər Nazirliyinin 12 saylı Ərazi Vergilər Departamentinin (ƏVD) əməkdaşları ilə Azərbaycan Texnologiya Universitetinin müəllim və tələbələrinin görüşü olub. ƏVD-nin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev tədbirdə görüş iştirakçılarına vergi sistemində aparılan islahatlar, vergi ödəyicilərinə göstərilən yeni xidmətlər, şəffaf vergi partnyorları ilə tərəfdaşlıq haqqında ətraflı məlumat verib. Vergi ödəyicilərinin qeydiyyatı ilə bağlı yeniliklər, respublikamızda keçirilən ticarət festivalları, «Tax free» rejimi, nağdsız hesablaşmalar, sadələşdirilmiş vergi üzrə sabit məbləğin tətbiqi vəziyyəti və digər məsələlər barədə məlumatlar görüş iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Görüş zamanı universitetin müəllim və tələbələrinin təklif və müraciətləri dinlənilib, sualları cavablandırılıb.

## Kiçik və orta sahibkarlıqla bağlı müzakirələr aparılır

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi üzrə müzakirə aparılıb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, nazirliyin əlaqələndiricisi olduğu «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin icra vəziyyəti üzrə keçirilən iclasda qarşıya qoyulmuş tapşırıq və tövsiyələrin yerinə yetirilməsi barədə hesabat məruzələri dinlənilib.

İclasda sözügedən Strateji Yol Xəritəsi üzrə tədbirlərin, xüsusilə də 2017-ci ildə icra müddəti başa çatan tədbirlərin prioritetliyi nəzərə alınaraq, cari ilin 1-ci yarımilliyi üzrə icra vəziyyətinin qiymətləndirilməsinə dair İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ümumiləşdirilmiş hesabatlarında verilmiş tövsiyələr bir daha müzakirə edilib, görülməsi tələb olunan işlərə və gözlənilən nəticələrə dair fikir mübadiləsi aparılıb.

Strateji yol xəritələrində İqtisadiyyat Nazirliyinin icraçı olduğu tapşırıqların icra vəziyyətinin nazirlik üzrə aidiyyəti əlaqələndirici struktur bölmələrin və icraçıların iştirakı ilə müzakirəsinin aparılması tədbirləri davam etdirilir.

# Avropa İttifaqı Azərbaycanda yeni iqtisadi layihələr həyata keçirəcək

Brüsseldə keçirilmiş Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı Sammitində Azərbaycanın bu mötəbər qurumla əməkdaşlığı və perspektivləri ilə bağlı məsələlər nəzərdən keçirilib. Aİ-nin qonşuluq siyasəti və genişlənmə məsələləri üzrə komissarı Yohannes Han bildirib ki, Şərq Tərəfdaşlığı Sammiti Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlıq üçün yeni istiqamətlər müəyyən edəcək. Hazırda Aİ ilə yeni sazişlə bağlı fəal danışıqlar davam etdirilir və sənədin gələn il təsdiq olunacağı nəzərdə tutulur. Saziş Aİ ilə Azərbaycan arasında əməkdaşlığı yeni mərhələyə çatdıracaq və iqtisadi sahədə yeni imkanlar yaradacaq.

Azərbaycanın enerji və qeyri-neft mənbələrinin ixracında Avropanın əsas tərəfdaşlarından biri olduğunu deyən cənab Y.Han təşkilatın respublikamızın iqtisadiyyatını şaxələndirmək səylərini dəyərləndirdiyini və institusional islahatlara dəstəyini artıracağını qeyd edib: «Regionda mühüm tranzit qovşağının kəsişməsində yerləşən Azərbaycan Şərqdən Qərbə istiqamətlənən daşınmaların həyata keçirilməsinə də töhfə verir. Yeni istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Asiya ilə Avropa arasında vacib körpü rolunu oynayacaq və iki qitənin iqtisadi əlaqələrinin möhkəmlənməsinə səbəb olacaq. Dəmir yolu region ölkələri arasında daha yaxşı əlaqələrin qurulması, biznes üçün yeni imkanların təmin olunması, eləcə də Aİ ilə Asiya arasında ticarətin genişlənməsi üçün potensialları artıracaq».




> Aİ indiyədək Azərbaycanda 46 tvinninq layihəsini reallaşdırıb, hazırda 13 layihə icra olunur, daha 8-i isə hazırlıq vəziyyətindədir

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Azərbaycan və Aİ ölkələri arasında iqtisadi əlaqələr uğurla davam edir və respublikamız təşkilatla qeyri-neft sektoru sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır. Aİ Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarındandır. Bu il Aİ ölkələrinin Azərbaycanın xarici ticarətindəki payı 35 % təşkil edib və Azərbaycanda 1400 Avropa şirkəti fəaliyyət göstərir. Azərbaycanda əsas kapitala yönəlmiş investisiyalarının ümumi həcmində Aİ ölkələrinin payı son 10 ildə 46 faiz, qeyri-neft sektoruna birbaşa investisiyalarda isə 35 faizdir. Hazırda Aİ-nin Azərbaycan iqtisadiyyatına yatırdığı sərmayələrin həcmi 20 milyard dollardan çoxdur.

Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin üzvü Aydın Hüseynov hesab edir ki, Azərbaycan Aİ ilə imzalanmış bir sıra mühüm sənədlər çərçivəsində siyasi və iqtisadi sahələrdə layihələr icra edib. Tərəflər sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması, vergi-gömrük-biznes xidmətlərinin, iqtisadi qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi, tarazlı və davamlı iqtisadi inkişafa dəstək tədbirlərinin aparılması istiqamətində sıx əməkdaşlıq edib. Avropa Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planı və Şərq Tərəfdaşlığı təşəbbüsü çərçivəsində Azərbaycanın Aİ ölkələri ilə mövcud əməkdaşlığının gücləndirilməsi və çoxtərəfli formatda davam etdirilməsi, hərtərəfli azad ticarət sahəsində yeni əməkdaşlığın artırılması, davamlı inkişafın təmin olunması, ixrac və investisiyalar sahəsində qanunvericiliyin tənzimlənməsi sahələrində, eləcə də sosial-iqtisadi sahədə islahatlar həyata keçirilib.

Aİ ilə Azərbaycan arasında tvinninq və TAIEX alətləri çərçivəsində də əmək bazarı, azad biznes, azad ticarət, kiçik və orta sahibkarlıq üzrə platformalar yaradılıb. Hazırda respublikamız tvinninq layihələrinin sayına görə region ölkələri arasında öndədir.

Aİ-nin Azərbaycan Vergilər Nazirliyi ilə sıx əməkdaşlıq mexanizmi çərçivəsində də bir sıra mühüm layihələr həyata keçirilib və bəzi layihələrin icrası davam etdirilir. Vergilər Nazirliyinin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Kommersiya Qeydiyyatçıları Forumu (ECRF) ilə yaxşı əlaqələri var, nazirlik 2013-cü ildə MDB ölkələri arasında ilk dəfə IOTA-nın əsas qərarverici və idarəetmə orqanı olan İcraiyyə Şurasına üzv seçilib. Nazirlik Avropa qurumları ilə vergi sahəsində islahatlar, vergitutma, müasir elektron xidmətlərin və texnologiyaların tətbiqi, qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması ilə bağlı davamlı əməkdaşlığı daha da möhkəmləndirib.

Aİ-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas qeyd edib ki, Aİ Azərbaycanla Avropa Qonşuluq siyasəti çərçivəsində sıx əməkdaşlıq edir, iqtisadiyyatın bir çox sahələri üzrə hüquqi, texniki, iqtisadi, institusional islahatlara dəstək verir, qabaqcıl dünya təcrübəsinin tətbiqinə müxtəlif alətlər çərçivəsində yardım göstərir. Təşkilatın ən önəmli yardım alətlərindən olan tvinninq iqtisadi islahatların həyata keçirilməsində mühüm rol oynayır. Aİ indiyədək Azərbaycanda 46 tvinninq layihəsini reallaşdırıb, hazırda 13 layihə icra olunur, daha 8-i isə hazırlıq vəziyyətindədir.

Aİ ilə Azərbaycan arasında vergi sahəsində qurulmuş səmərəli əməkdaşlıq vergi sisteminin müasir inkişafına mühüm töhfəsini verməkdədir. İndiyədək tvinninq yardım aləti çərçivəsində birgə «Kompüter əsaslı audit sistemi sahəsində Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» və «Vergilər Nazirliyinin insan resurslarının davamlı inkişafının təmin edilməsinə dəstək» layihələri uğurla icra edilib. Hər iki layihə Azərbaycanın vergi inzibatçılığının müasir informasiya texnologiyalarının nailiyyətlərinə əsaslanmaqla təkmilləşməsinə, insan resurslarının inkişafında müasir modellərin tətbiqinə imkan verib. 2017-ci ilin mart ayından isə «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək» tvinninq layihəsinin icrasına başlanılıb. Gələn il isə transfert qiymətqoyma ilə bağlı daha bir layihəyə start verilməsi nəzərdə tutulur.

**E.CƏFƏRLİ**

# Azərbaycanın şəhər və rayonları öz gəlirləri hesabına maliyyələşəcək

## *Regionların vergi potensialının artması onlara gəlir və vergiləri hesabına özlərini təmin etməyə imkan yaradır*

Rayonların iqtisadi potensialının artırılması, maliyyə xərclərini öz yerli resursları hesabına ödəməsi, aqropark və sənaye zonalarının yaradılmasında bölgələrdəki sahibkarların maliyyə imkanlarından istifadə edilməsi regionların inkişafı ilə bağlı yürüdülən siyasətin əsas tərkib hissələrindəndir. Prezident İlham Əliyev rayonların öz potensialından daha səmərəli istifadə etməsini vacib bir məsələ kimi qarşıya qoyaraq bildirmişdir ki, hər bir bölgə öz daxili resursları hesabına iqtisadi və sənaye potensialını gücləndirməyə çalışmalıdır: «Azərbaycan dövləti və hökuməti fəaliyyətini hər bir bölgə üzrə konkret plan, konkret proqram əsasında qurubdur. Hər bir bölgəyə dövlət büdcəsindən subsidiyalar, dotasiyalar verilir. Amma biz elə etməliyik ki, rayonların sənaye və iqtisadi potensialından maksimum şəkildə istifadə edək». Dövlət başçısı qeyri-neft mənbələri ilə zəngin olan bir çox rayonlarda milli sahibkarlığın inkişafı sahəsində bölgələrin iqtisadi qüdrətinin artacağına əminliyini ifadə edərək, bu sahədə dövlətin üzərinə düşən institusional islahatların həyata keçiriləcəyini qeyd edib.

Növbəti illərdə bölgələrin özünümaliyyələşdirmə mexanizminə keçidinin başa çatdırılması nəzərdə tutulur. Gələn il xərclərini öz gəlirləri hesabına təmin edəcək şəhər və rayonlar istisna olmaqla, büdcədən asılı olan və dotasiya ilə yaşayan rayon və şəhərlərə müstəqil maliyyə-büdcə sistemlərini formalaşdırmaq tövsiyə edilib. Hökumət tərəfindən həmin rayonların mərkəzləşdirilmiş büdcədən asılılığının qarşısını almaq üçün onlara verilən dotasiyaların tədricən kəsilməsi, hər bir rayona öz spesifik iqtisadi-coğrafi şəraiti nəzərə alınmaqla investisiya planını hazırlayıb həyata keçirmək tapşırılıb.

### *Regionların iqtisadi potensialı səfərbər edilir*

İqtisadiyyat Nazirliyinin hazırladığı «2018-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri» sənədində respublikanın şəhər və rayonları üzrə yerli gəlir və xərclərin tarazlaşdırılması, xərclərin büdcə təşkilatlarının sifarişləri və ölkənin makroiqtisadi bazası çərçivəsində tərtibi işlərinin təkmilləşdirilməsi nəzərdə tutulub. Bundan əlavə, dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə adambaşına maliyyələşdirmə prinsipinə keçidin davam etdirilməsi, yerli proqramların və tədbirlərin ortamüddətli büdcə xərcləri ilə uzlaşdırılması, regionların öz maliyyə ehtiyatlarını daha çox cəlb etməklə inkişafa, sosial və infrastruktur obyektlərinin tikinti və bərpasına üstünlük verilməsi, həmin vəsaitlərdən istifadənin səmərəliliyinin artırılması diqqət mərkəzindədir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı Azərbaycanın inzibati rayonlarının 2017-ci il üzrə investisiya reytinqinə əsasən, hazırda rayonların böyük qismi öz daxili resursları və potensialı hesabına maliyyə xərclərini ödəmək iqtidarındadır. Bu baxımdan, Mingəçevir, Sumqayıt, Şirvan, Gəncə, Naftalan və Lənkəran şəhərləri, Abşeron, İmişli, Beyləqan, Qəbələ, Bərdə, Qax, Siyəzən, Qazax, Xızı, Yevlax, Şəki, Zaqatala, Oğuz, Göygol, Xaçmaz, Qusar və Hacıqabul rayonları iqtisadi konyunktur və ümumi inkişaf səviyyəsinə görə geniş imkanlara malikdirlər. Qeyd olunan şəhər və rayonlarda iqtisadi fəaliyyət sahələrinin aktivliyi, istehsal sektorlarının davamlılığı, yeni rəqabət qabiliyyətli məhsul istehsalı sahələrinin yaradılması maliyyə imkanlarının yaxşılaşmasına səbəb olub. Bu isə öz növbəsində həmin regionlarda iqtisadi və sosial layihələrin icrası, kapital qoyuluşları, sosial infrastruktur təminatı və digər sahələrdə görülən işlərin davam etdirilməsi üçün özünümaliyyələşdirmənin tam tətbiqinə imkan verir.

### *Vergi ödəyicilərinin sayı artır*

«Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın uğurlu icrası ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasətinin güclənməsinə, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsinə, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasına, ümumilikdə bölgələrin hərtərəfli inkişafı sahəsində əhəmiyyətli dəyişikliklərə şərait yaradıb. İcrası davam etdirilən balanslaşdırılmış və hərtərəfli inkişafa yönəldilmiş strateji proqramlar öz uğurlu nəticələrini göstərməkdədir. Ölkədə yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi təminatı, meliorasiya ilə bağlı iri infrastruktur layihələri uğurla icra olunub, yeni məktəblər, tibb ocaqları tikilib və əsaslı təmir edilib, məcburi köçkünlərin sosial məsələlərinin həlli, onların mənzillə təmin edilmələri məsələsi diqqət mərkəzində olub. 2017-ci ilin yanvar-sentyabr ayları ərzində ölkə üzrə 239,7 min yeni, o cümlədən 150,9 min daimi iş yeri açılıb ki, bunların da 76,7 faizi regionların payına düşür.

> **Bölgələrdə vergi potensialının, eləcə də vergi ödəyicilərinin sayının artması regionlardan daxil olan vergilərin həcminin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub**

Bölgələrdə həyata keçirilən dövlət proqramları nəticəsində yeni vergitutma mənbələrinin yaranması, iqtisadiyyatın indiyədək vergitutma bazasına cəlb edilməmiş ayrı-ayrı sahələrindən vergilərin hesablanması, vergi potensialının, eləcə də vergi ödəyicilərinin sayının artması regionlardan daxil olan vergilərin həcminin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. 2017-ci ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin böyük qismi sahibkarların vergi yükünün aşağı salınması, ölkədə daha əlverişli və səmərəli biznes mühitinin təmin edilməsi, yeni istehsal və xidmət sahələri yaradılması üçün stimul verir. Bunu fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin statistikasından da aydın şəkildə görmək olar.

2017-ci ilin yanvar-noyabr aylarında ərazi vergi orqanları üzrə 96.547 vergi ödəyicisi qeydiyyata alınıb, 2737 hüquqi, 31.082 fiziki şəxs fəaliyyətini bərpa edib və bu, 2016-cı ilin müvafiq göstəricilərindən xeyli yüksəkdir. Ümumilikdə isə yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş hüquqi şəxslərin ümumi sayı ləğv edilmiş və fəaliyyətini dayandırmış hüquqi şəxslərin ümumi sayı ilə müqayisədə daha çoxdur: bunların arasındakı fərq 1058-dir. Fiziki şəxslərə münasibətdə də eyni müsbət dinamika müşahidə olunur.

Bu ilin ilk 11 ayı ərzində hüquqi və fiziki şəxslərə məxsus olan, yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş obyektlərin ümumi sayı fəaliyyətini dayandırmış və ya ləğv edilmiş obyektlərin ümumi sayından çoxdur: burada isə fərq 4427-dir. Göründüyü kimi, biznes fəaliyyəti ilə məşğul olanların sayında əhəmiyyətli artım baş verməkdədir ki, bu da ölkədə biznes mühitinin yaxşılaşmasından, sahibkarlar üçün əlverişli iş şəraitinin yaradılmasından xəbər verir.




Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üçün böyük vergi güzəştləri və azadolmalar sistemi mövcuddur. Dünya Bankının «Doing Business» hesabatına əsasən, biznesin qeydiyyata alınmasının sadəliyinə görə Azərbaycan dünyada ilk 20-liyə daxildir, vergi sisteminin sadəliyinə görə isə 35-ci yerdə qərarlaşıb.

### *Son 10 ildə regionlar üzrə vergi daxilolmaları 7 dəfə artıb*

Hazırda respublika üzrə qeydiyyatda olan 905.781 vergi ödəyicisindən 584.596-sı, yaxud 64,5 faizi regionların payına düşür. Statistik göstəricilərin müqayisəsinə əsasən, cari ilin əvvəllərindən sahibkarlıq sahəsində aparılan yeni islahatlar və qanunvericiliyə edilən mühüm dəyişikliklər ölkəmizdə əlverişli biznes mühitinin təmin olunması fonunda sahibkarlıq fəaliyyətinə başlayan şəxslərin sayının artmasına səbəb olub. Əvvəlki dövrdə fəaliyyətini dayandırmış müəssisələrin yenidən fəaliyyətə başlaması, yeni yaradılan sahibkarlıq subyektlərinin sayının əhəmiyyətli dərəcədə artması vergi ödəyiciləri üçün yaradılmış əlverişli şəraitin mühüm göstəricisi sayıla bilər.

Bütün bu amillər regionlarda iqtisadi fəallığın və nəticədə ərazilər üzrə vergi daxilolmalarının həcminin artmasına şərait yaradıb. Regionlarda infrastrukturun inkişafı, yeni iş yerlərinin açılması, ixrac potensialının genişləndirilməsi nəticəsində, torpaq vergisi istisna edilməklə, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vergi ödəyiciləri bütün vergilərdən azad edilsə də, paytaxtdan kənar ərazilərdə digər fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicilərinin də iqtisadi aktivliyi artıb.

Cari ilin ötən 11 ayı ərzində ərazi vergi orqanları üzrə dövlət büdcəsinə 529,1 milyon manat proqnoz tapşırığına qarşı 572,3 milyon manat, yerli mənbələr üzrə müəyyən edilmiş 387,7 milyon manat proqnoza qarşı isə 431,9 milyon manat vəsait ödənilib ki, bu da proqnoz tapşırıqlarına müvafiq olaraq 108,2 faiz və 111,4 faiz əməl olunması deməkdir. Yerli mənbələr üzrə daxilolmaların həcmində isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,7 faiz artım olub.

Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində son 10 il ərzində ərazi vergi orqanları üzrə vergi daxilolmaları 7 dəfəyədək artaraq 86,6 milyon manatdan 600,8 milyon manata çatıb.

### *Kənd təsərrüfatı məhsullarının ixracı stimullaşdırılır*

Yuxarıda qeyd olunduğu kimi, regionlarda iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatı məhsullarının istehsalı 1999-cu ildən bəri bütün növ vergilərdən azad edilib, aqrar sahəyə dövlət dəstəyi davam etdirilib. Kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər bu sahə üzrə məhsul istehsalının artmasına və digər ölkələrə ixracının yüksəlməsinə ciddi təkan verib: cari ilin 10 ayı ərzində kənd təsərrüfatı məhsullarının ixracı 45 faiz artıb.

Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan vergi ödəyiciləri arasında hələ də vergidən yayınma hallarının çoxluğu ciddi narahatlıq doğurur. Bir sıra hallarda bəzi işbazlar vergidən yayınmaq və buna görə heç bir məsuliyyət daşımamaq məqsədilə kənd təsərrüfatı məhsullarının ixracı prosesinə bu işdə səriştəsi olmayan insanları cəlb edir, onların əli ilə vergi qanunvericiliyini kobud surətdə pozaraq vergidən yayınmağa cəhd göstərirlər. Vergi orqanları tərəfindən belə faktlar aşkarlandıqda isə məlum olur ki, müvafiq sənədləri imzalamış və qanun qarşısında cavabdehlik daşıyan şəxslər, əslində, bütün işlərdən xəbərsizdirlər və cüzi vəsait qarşılığında külli miqdarda vergilərdən yayınma hallarına görə məsuliyyət onların üzərinə atılıb.

Qeyd olunan məsələ ilə bağlı Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə cari ilin noyabr ayının 17-də keçirilmiş zona müşavirəsi çərçivəsində kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan bir qrup vergi ödəyicisi ilə görüşlər keçirilib, bu kimi hallarla qarşılaşmamaq üçün görüş iştirakçılarının qaldırdıqları məsələlər və verdikləri təkliflər dinlənilməklə konkret tövsiyələr verilib, sahibkarlara öz fəaliyyətlərini şəffaf və qanun çərçivəsində qurmalarının zəruriliyi bir daha izah edilib.

### *Ölkənin 33 şəhər və rayonu öz gəlirləri hesabına yaşayır*

Büdcə asılılığı və gəlirlərin təsnifatı üzrə meyar regionlardakı vergi potensialının qiymətləndirilməsi baxımından da əhəmiyyət daşıyır. Məsələn, son 4 ildə büdcədən dotasiya almadan yerli gəlirləri hesabına özünü tam maliyyələşdirən şəhər və rayonlar - Sumqayıt, Abşeron, Şirvan, Mingəçevir, İmişli və Naftalan vergi potensialına görə də böyük imkanlara malik iqtisadi rayonlar hesab olunur. Eyni zamanda, 2017-ci ildə respublikanın 33 şəhər və rayonu qarşısında öz xərclərini mərkəzləşdirilmiş büdcədən dotasiya almadan vergilərin hesabına formalaşdırması məqsədi qoyulub. Cari ilin yanvar-noyabr aylarının nəticələri bu siyasətin özünü doğrultduğunu deməyə əsas verir. Öz gəlirləri hesabına xərclərinin ödənilməsinin təmin edilməsi nəzərdə tutulmuş 33 rayon və şəhər daxil olmaqla ölkənin bütün rayon və şəhərləri üzrə proqnoz tapşırıqları tam icra edilib. Həmin şəhər və rayonların mövcud iqtisadi potensialı qeyri-neft sektorunun inkişafı, vergi potensialının genişləndirilməsi və daxili gəlirlərin artması hesabına baş verir. Bu onu göstərir ki, iqtisadi göstəriciləri kifayət qədər yaxşı olan digər şəhər və rayonların da öz büdcələrini yerli gəlirlər hesabına təmin etmələri üçün real iqtisadi baza mövcuddur.

Qarşıya qoyulmuş əsas hədəflərdən biri gələcəkdə mərkəzləşdirilmiş büdcədən dotasiya almadan digər şəhər və rayonların da öz gəlirləri hesabına özlərini təmin etməsidir. Hazırda dövlət tərəfindən iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin yaxşılaşdırılması sahəsində görülən işlər regionlarda iqtisadi fəallığın güclənməsinə, sahibkarlıq subyektlərinin sayının artmasına və yeni müəssisələrin fəaliyyətə başlamasına zəmin yaradır.

### *Azərbaycanda fəaliyyətə başlayan xarici şirkətlərin sayı artır*

Sahibkarlıq sektoru üçün yaradılmış əlverişli mühit və həyata keçirilən səmərəli vergi siyasəti ölkədə fəaliyyətə başlayan xarici investorların da sayının artmasına səbəb olub. Respublikamızda investisiyaların təşviqi və qorunması, gəlirlər və əmlak üzrə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır. Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi də biznes mühitinə müsbət təsir göstərir.

İlin əvvəlindən Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin 868-i xarici investisiyalı şirkətlərdir. Onlardan 84-ü ərazi vergi orqanlarında qeydiyyata alınıb. Ümumilikdə, son 13 ildə ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mini ötüb. Həmin şirkətlərin daha çox maraq göstərdikləri sahələr sənaye, tikinti, nəqliyyat, ticarət, turizm və xidmət sektorlarıdır.

### *Vergi öhdəliklərinə əməl etmək hər kəsin Konstitusiya borcudur*

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsində göstərildiyi kimi, hər kəs dövlət tərəfindən müəyyən olunmuş vergiləri vaxtında və tam həcmdə dövlət büdcəsinə ödəməlidir. Çünki bu gün ölkəmizin iqtisadi və sosial inkişafında vergi daxilolmalarının həcminin artması mühüm rol oynayır. Vergilərin hesabına əmək haqları, pensiyalar, müavinətlər artırılır, hərbi sahəyə yönəldilən maliyyə sayəsində ordumuz daha da gücləndirilir, eləcə də nəzərdə tutulan digər xərclər maliyyələşdirilir. Başqa sözlə desək, vergilərin həcminin artması büdcənin böyüməsinə və sosial sahələrə daha çox vəsaitin yönəldilməsinə imkan verir.

**Elbrus CƏFƏRLİ**

# Kreditlərə zəmanət veriləcək

Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi və hesablanmış faizlərə görə subsidiya verilməsi qaydaları Prezident İlham Əliyevin fərmanı ilə təsdiq edilib. Dövlət başçısının imzaladığı digər fərmana əsasən, Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi nəzərdə tutulub.

Hər iki sənəd sahibkarların, xüsusilə də kiçik və orta sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsinə və maliyyə xidmətləri ilə təminatının yaxşılaşdırılmasına, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə və dayanıqlı iqtisadi artımın təmin olunmasına xidmət edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Çaparlı kreditlərə təminat və hesablanmış faizlərə görə subsidiya verilməsi qaydalarını şərh edərək demişdir ki, bundan sonra sahibkarlıq sektorunun əldə edəcəyi kreditlərlə bağlı əlverişli və sadə mexanizm qurulacaq: sahibkar kredit sifarişi ilə müvəkkil banka müraciət edəcək. Bank müvafiq təhlillər apararaq tələb olunan qaydalara cavab verdiyi halda zəmanət üçün sahibkarın Kredit Zəmanət Fonduna müraciət etməsini müsbət cavablandıracaq.

Fonddan maliyyə vəsaiti almaq üçün kreditin məbləğinə uyğun müddət təyin olunacaq. 200 min manat və ondan aşağı məbləğdə olan zəmanətin verilməsi üzrə 3 iş günü, 200 min manatdan yuxarı olan məbləğdə isə 10 iş günü ərzində qərar qəbul ediləcək. Zəmanət alan sahibkarla Kredit Zəmanət Fondu və müvəkkil banklar arasında çərçivə müqaviləsi bağlanacaq. Zəmanət yalnız Azərbaycanın qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarların öhdəlikləri üzrə veriləcək. Zəmanət veriləcək kreditlər müvafiq tələblərə cavab verməlidir, yəni kreditin məbləği 30 min manatdan az olmamalıdır. Sahibkarların bir-biri ilə, yəni borcalanlar qrupunun bütün müvəkkil banklar üzrə zəmanət verilən ümumi kreditlərinin məbləği 3 milyon manatdan çox ola bilməz. Kreditin qaytarılma müddəti 7 il müəyyənləşdirilib.

Zəmanət krediti yalnız əsas borc üzrə veriləcək və bir kredit üzrə zəmanətin kreditə nisbəti 15%-dən az və 75%-dən çox olmaması əsas şərtdir. Bir borcalan üzrə bir zəmanətin aşağı həddi 15 min manat, bütün zəmanətlərin yuxarı həddi isə 500 min manat məbləğində müəyyənləşdirilib.

Kredit Zəmanət Fondu sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya da verəcək. Faiz subsidiyası sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlər üzrə ödənilmiş faizlərin bir hissəsinə görə dövlət tərəfindən əvəzsiz verilən maliyyə vəsaiti deməkdir. Sahibkar subsidiyasının verilməsi üçün müvəkkil bankın müraciəti əsasında Kredit Zəmanət Fondundan zəmanət alınması ilə bağlı tələb olunan sənədləri təqdim etməlidir. Faiz subsidiyası illik faiz dərəcəsi 20 faizdən çox olmayan kreditlər üçün veriləcək, Müddəti 3 il və ondan az olan kreditlər üçün 8 faiz bəndi miqdarında, müddəti 3 ildən artıq olan kreditlər üçün isə 10 faiz bəndi miqdarında illik faiz dərəcəsi hesablanacaq.

Subsidiya dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Kredit Zəmanət Fondu sahibkarlıq subyektlərində monitorinq sistemi quracaq. Monitorinqin başlamasından ən azı 3 iş günü əvvəl sahibkarlıq subyekti və müvəkkil banka monitorinq barədə məlumat veriləcək.

Kredit və subsidiyaların verilməsi ilə bağlı əsas qurum olan Kredit Zəmanət Fondunun fəaliyyətə başlaması gələn ilin yanvar ayından nəzərdə tutulub. Fondun yaradılması real sektorla maliyyə sektoru arasındakı iqtisadi tarazlığın bərpa olunmasına, maliyyə risklərinin bölünməsinə, bankların dayanıqlığının və real sektora maliyyə axınının gücləndirilməsinə, əks-dollarlaşmanın stimullaşdırılmasına və rəqəmsal ödənişlərin genişləndirilməsinə nail olmaq üçün mühüm addım kimi dəyərləndirilir.

Pilot layihə kimi ilk növbədə yüksək gəlir gətirmək potensialına malik sektorlara, məsələn, maşınqayırma və kənd təsərrüfatı məhsullarının emalına yönəldilmiş kreditlərə zəmanət veriləcək. Ayrı-ayrı kiçik və orta sahibkarlıq subyektlərinin seçilməsi meyarları ilkin mərhələdə daha sərt şəkildə müəyyən ediləcək: seçim zamanı əsas üstünlük qəbul olunan səviyyədə idarəçilik mexanizmləri olan, lazımi məlumatlarla tam təchiz olunmuş, qeydiyyatdan keçmiş, eləcə də strateji planı və kredit reyestrində yüksək reytinqi olan təsərrüfat subyektlərinə veriləcək.

İqtisadçı Rəşad Həsənov hesab edir ki, «Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə əksini tapmış islahatların mühüm hədəflərindən biri Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsidir. Ölkədə maliyyə vəsaitləri ilə təminatın artımına nail olunması iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, məşğulluğun yaxşılaşdırılmasına da əlavə dəstək verəcək. Kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə riskləri azalacaq. Kredit Zəmanət Fondu kiçik və orta sahibkarlıq subyektlərinin ixrac məqsədləri üçün kredit ehtiyaclarını daha yaxşı ödəmək üçün əlavə imkanlar yaradacaq. Yerli bazara çıxış məqsədilə kreditlərə daha məhdud səviyyədə zəmanət veriləcək və bu zaman əsas diqqət orta sahibkarlıq subyektlərinə, daha sonra isə uzunmüddətli perspektivdə mikrosahibkarlıq subyektlərinə yönəldiləcək.

**ELBRUS**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Təhsil haqqının ödənilməsi

***Bakı Dövlət Universitetinin filologiya fakültəsinin 2-ci kurs tələbəsiyəm, ödənişli əsaslarla təhsil alıram. Təhsil aldığım universitetə təhsil haqqı nağd qaydada ödənilə bilərmi?***

«Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə əsasən, nağdsız hesablaşma dedikdə, bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə, ödəniş terminalları ilə və birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur.

Həmin Qanunun 3.4.8-ci maddəsinə əsasən, təhsil haqlarının ödənilməsi həmin Qanunun 3.3-cü maddəsinin müddəalarından asılı olmayaraq, yalnız nağdsız qaydada həyata keçirilməlidir.

***Qeyd olunanlara əsasən:***

Təhsil haqlarının ödənilməsi Qanunun 3.1-ci maddəsi ilə müəyyən edilmiş nağdsız hesablaşmaların hər üç forması üzrə həyata keçirilə bilər.

## Ümumi Hesabatlılıq Standartının tətbiqi uğurla davam edir

Azərbaycan Respublikası Prezidentinin 3 may 2017-ci il tarixli sərəncamına əsasən, bu il iyunun 1-də «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»ya qoşulmaq barədə bəyanat imzalanmışdır. Razılaşmaya qoşulmaqda əsas məqsəd İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanmış və vergitutma məqsədləri üçün müxtəlif dövlətlərin rezidentləri olan fiziki və hüquqi şəxslərin maliyyə institutlarındakı hesabat verilməli hesabları barədə məlumatların toplanması və həmin şəxslərin rezidentləri olduqları dövlətlərlə avtomatik mübadiləsinin vahid prinsiplərini tənzimləyən Ümumi Hesabatlılıq Standartının (Common Reporting Standard - CRS) tətbiq edilməsidir.

OECD-nin Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumunun prosedurlarına uyğun olaraq Çoxtərəfli Razılaşmaya qoşulmuş hər bir yurisdiksiyada həm məlumatların təhlükəsizliyi səviyyəsinin, həm də müvafiq qanunvericiliyin tələblərinə uyğunluğunun təşkilat tərəfindən qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar Qlobal Forum tərəfindən bu ilin iyul ayında Vergilər Nazirliyinə «Məxfilik və Məlumat Təhlükəsizliyi üzrə Sorğu» anketi təqdim edilmişdir. Anket Vergilər Nazirliyi tərəfindən cavablandırılaraq OECD-nin Katibliyinə təqdim edilmişdir.

Sorğuda əks olunmuş suallara verilmiş cavabların müzakirə edilməsi, eləcə də məxfilik və məlumat təhlükəsizliyi sisteminin praktiki aspektlərinin öyrənilməsi məqsədilə Qlobal Forumun ekspertləri noyabrın sonunda Vergilər Nazirliyində olmuşlar. Qeyd edək ki, məxfilik və məlumat təhlükəsizliyi sisteminin Qlobal Forumun ekspertləri tərəfindən qiymətləndirilməsi Azərbaycanın Çoxtərəfli Razılaşma üzrə götürdüyü öhdəliklərdən irəli gəlir. Müzakirə olunmuş məsələlərin Qlobal Forumun ekspertləri tərəfindən qiymətləndirilməsi Çoxtərəfli Razılaşmaya qoşulmuş tərəfdaş yurisdiksiyalarla məlumat mübadiləsinə dair yekun rəyin verilməsi zamanı nəzərə alınacaqdır.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Özüməşğulluq proqramının əhatə dairəsi genişlənir

Ölkəmizdə qeyri-neft sektorunun inkişafına yönələn islahatlar proqramının uğurlu nəticələri, yeni sənaye parklarının və zonalarının yaradılması, tranzit potensialının artırılması və inşaat sektorunun canlanması, xüsusilə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi əmək resurslarının səmərəli məşğulluq imkanlarının artmasına səbəb olub. Bunlarla paralel olaraq, işəgötürənlərlə birgə aktiv məşğulluq tədbirləri də davam etdirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilir ki, bu proseslər ölkəmizin əmək bazarında sabit vəziyyəti şərtləndirən müsbət meyillərin formalaşmasına şərait yaradıb. 2017-ci ilin 10 ayında məşğulluq orqanlarına iş üçün müraciət edənlərin sayında ötən ilin müvafiq dövrünə nisbətən 46 faiz azalma özünü göstərib. Bu dövrdə 43.746 nəfərin məşğulluğu təmin olunub, 919 şəxs ödənişli ictimai işlərə, 76,8 min nəfər peşəyönümü tədbirlərinə cəlb edilib. Dövr ərzində məzun və tələbələr üçün «Karyerada ilk addım» devizi altında 9 ali təhsil ocağında təşkil edilən aktiv məşğulluq tədbirlərində 519 müəssisə tərəfindən 2,6 min boş (vakant) iş yeri təqdim olunub. Nazirlik yanında Dövlət Məşğulluq Xidməti və 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi tərəfindən 3170 nəfər üçün peşə hazırlığı və əlavə təhsil kursları təşkil edilib.

Bildirilib ki, 2017-ci ildə 1232 aztəminatlı ailəyə aktivlər verilməklə onların müxtəlif iqtisadi fəaliyyət növləri üzrə təsərrüfatlarını yaratmalarına, gəlirlərini artıraraq yoxsulluqdan sahibkarlığa çıxış imkanı əldə etmələrinə şərait yaradılıb. Gələn il proqrama bundan bir neçə dəfə çox sayda ailənin cəlb edilməsi gözlənilir.

**İşsizlikdən Sığorta Fonduna 2018-ci ildə toplanması gözlənilən 89 mln. manat vəsaitin yönəldilməsi istiqamətləri**

*(min manat)*




duna toplanacaq vəsaitin mühüm bir hissəsinin aktiv məşğulluq tədbirlərinin təşkilinə, xüsusən özüməşğulluq proqramının genişləndirilməsinə yönəldilməsi nəzərdə tutulur. İşsizlikdən Sığorta Fonduna 2018-ci ildə toplanması gözlənilən 89 mln. manat vəsaitin 35,8 mln. manatının və ya 40 faizinin özüməşğulluq proqramına, 1 mln. 613 min manatının peşə hazırlığı və əlavə təhsilin, 1 mln. 788 min manatının haqqı ödənilən ictimai işlərin, 1 mln. 150 min manatının peşəyönümünə dair məsləhət xidmətlərinin, 120 min manatının isə əmək yarmarkaları və əmək birjalarının təşkil olunmasına yönəldilməsi gözlənilir. İşsizlikdən sığorta vəsaitləri hesabına formalaşan vəsaitdən işsizliyə görə sığorta ödənişləri və s. üçün istifadə olunmaqla bərabər, eyni zamanda həmin vəsaitin mühüm bir hissəsi əhalinin məşğulluğunun dəstəklənməsinə sərf ediləcək. Beləliklə, aktiv məşğulluq tədbirlərinin miqyasının xeyli genişlənməsi, bu tədbirlərin əhatə edəcəyi vətəndaşların sayının dəfələrlə artması, ümumən ölkədə sosial müdafiə siyasətində məşğulluq amili rolunun gücləndirilməsi məşğulluğun təminatı sahəsində çalışan əməkdaşların da məsuliyyət və səylərinin artmasını, onların öz iş sahələrinə, tapşırılan vəzifələrin icrasına daha işgüzar və peşəkarlıqla yanaşmalarını tələb edir.

**Bu il1232 aztəminatlı ailəyə aktivlər verilməklə onların müxtəlif iqtisadi fəaliyyət növləri üzrə təsərrüfatlarını yaratmalarına, gəlirlərini artıraraq yoxsulluqdan sahibkarlığa çıxış imkanı əldə etmələrinə şərait yaradılıb**

Qeyd edək ki, «İşsizlikdən sığorta haqqında» Qanun 1 yanvar 2018-ci ildən qüvvəyə minəcək və gələn il İşsizlikdən Sığorta Fon-

Bütün qeyd olunan tədbirlər işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsi sisteminin və məşğulluq xidməti orqanlarının fəaliyyətinin müasir beynəlxalq standartlar əsasında qurulmasını, o cümlədən əmək bazarının çağırışlarına adekvat cavab verə bilən kadr potensialının formalaşmasını tələb edir ki, artıq bu istiqamətdə BƏT, BMT İnkişaf Proqramı, Dünya Bankı, Avropa İttifaqı və digər təşkilatlarla sıx əməkdaşlıq həyata keçirilir.

**AYTƏN**

# İqtisadi artımda innovasiyaların rolu müzakirə olunub

***İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda «İqtisadi artımda innovasiyaların rolunun alternativ qiymətləndirilməsi» mövzusunda konfrans keçirilib.***

Konfransda İqtisadiyyat Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının, ali təhsil müəssisələrinin nümayəndələri ilə yanaşı, Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutunun və Dövlət-Özəl Sektor Əməkdaşlıq Mərkəzinin əməkdaşları iştirak ediblər.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov tədbiri giriş sözü ilə açaraq müasir dövrdə innovasiyaların iqtisadi inkişafda rolunun qiymətləndirilməsinin mütəxəssislər arasında müzakirə edilməsinin, yeni çağırışlar və meyllərin qiymətləndirilməsində alternativ ölçmə üsullarının tətbiqinin əhəmiyyətini vurğulayıb. Onun sözlərinə görə, müasir dövrdə yeni texnologiyaların transferi iqtisadiyyatın strukturunun yenilənməsini, əlavə dəyəri yüksək olan rəqabətqabiliyyətli müasir sənaye məhsulları və innovasiya əsaslı sənaye subyektlərinin formalaşmasını şərtləndirir: «Bu proseslər dövlət dəstəyinin rolunun artması fonunda elmi tədqiqatlar, universitet və sənaye işbirliyinin formalaşmasının təsiri nəticəsində yeni innovativ sahibkarlığın formalaşmasını təmin edib».

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev rəhbərlik etdiyi qurumun Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutu ilə 10 ilə yaxın müddətdə birgə gördüyü işlər barədə məlumat verib. Tədbirdə Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutunun nümayəndəsi Sara Alpısbayeva Azərbaycan və Qazaxıstan elmi tədqiqat institutlarının səmərəli əməkdaşlıq etdiyini və əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyətini qeyd edib.

Azərbaycan Dövlət İqtisad Universitetinin nümayəndəsi Yadulla Həsənli Azərbaycanda innovasiyaların sənayenin inkişafında önəmli rol oynadığını qeyd edib, universitet-sənaye işbirliyinin formalaşmasının və kadr hazırlığının əhəmiyyətindən danışıb.

Plenar sessiyada Qazaxıstanın İqtisadi Tədqiqatlar İnstitutunun Analitik Tədqiqat və Proqnozlaşdırma Mərkəzinin direktoru Sara Alpısbayeva «Qazaxıstanda enerji bazarının qlobal qeyri-müəyyənlik şəraitində uzunmüddətli inkişaf məqsədləri», Qazaxıstanın Dövlət-özəl Sektor Əməkdaşlıq Mərkəzinin icraçı direktoru Azamat Nurseyitov «Dövlət və biznesin qeyri-mütənasib inkişafı: idarəetmə üçün yeni çağırışlar», İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktor müavini Arzu Hüseynova «İntellektual təhlil üsulları və modellərinin tətbiqi», İnstitutun baş elmi işçisi Malik Mehdiyev dəyər və indekslər nəzəriyyəsi arasındakı ziddiyyət və onun iqtisadi artımın statistik qiymətləndirilməsində yaratdığı problem» mövzularında çıxış ediblər.

**“Azərbaycanda dayanıqlı inkişafın təmin olunması məqsədilə qəbul edilmiş strateji sənədlərin mühüm hədəflərindən biri də innovasiyaların təşviqidir**

Millət vəkili Tahir Mirkişili tədbir haqqında öz fikrini bildirərək qeyd edib ki, iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyinin və ixrac potensialının artırılması, ətraf mühitin mühafizəsinin gücləndirilməsi baxımından innovasiyalar mühüm əhəmiyyət kəsb edir. Ölkəmizdə dayanıqlı inkişafın təmin olunması məqsədilə qəbul edilmiş strateji sənədlərin mühüm hədəflərindən biri də innovasiyaların təşviqidir: «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında, həmçinin müxtəlif sektorları əhatə edən Strateji Yol xəritələrində innovasiya ilə əlaqədar bir sıra hədəflər müəyyənləşdirilib.

Azərbaycan BMT-nin yeni qlobal Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsünə qoşulub və BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf üzrə Gündəliyinin məqsədlərindən biri də məhz möhkəm infrastruktur qurmaq, inklüziv və dayanıqlı sənayeləşdirməni təşviq etmək və innovasiyaları həvəsləndirməkdir».

T.Mirkişilinin sözlərinə görə, Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə istehsal olunan məhsulların reallaşdırılması üçün yeni bazarlara ehtiyac yaranır ki, bu da yeni şərtlər və güclü rəqabət deməkdir: «Rəqabətdə qalib gəlməyin əsas şərti istehsalda və marketinqdə yeni texnologiyaların, xüsusilə də innovasiyaların tətbiqidir. İnnovasiyalar hər bir sahibkara üstünlük və fayda verməklə yanaşı, onu həm də yeni investisiyalar üçün əlverişli edir».

**Fəxriyyə İKRAMQIZI**

# Əmək müqaviləsi gələcəyin təminatıdır

***Əmək müqaviləsi bağlandıqda işçi məcburi dövlət sosial sığorta olunmaqla fərdi uçot sistemində şəxsi hesaba malik olur ki, bu da ona həmin hesabda gələcək sosial təminat hüquqları, o cümlədən əmək pensiyası hüququ üçün vacib olan pensiya kapitalını formalaşdırmaq və mütəmadi şəkildə artırmaq imkanı verir.***

Fərdi uçot sistemi 2006-cı ildən Azərbaycanda fəaliyyətə başlayan müasir sığorta-pensiya sisteminin mühüm elementi olaraq, sığortaolunanlar haqqında məlumatların uçotunun təşkili və aparılmasına xidmət edir. Hər bir işləyən şəxs sistemdə öz şəxsi hesabını açdırmaqla həmin hesabda öz pensiya kapitalını toplamaq imkanı əldə edir. Bununla da o, gələcəkdə əmək pensiyası, digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün əsas formalaşdırmış olur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) «Sığortaolunanlara məlumatların verilməsi» e-xidməti vasitəsilə hər bir işçi öz sığorta hesabında toplanan vəsaitlərin artım dinamikasını, işəgötürən tərəfindən onun fərdi sosial sığorta hesabına yönəldilən məcburi dövlət sosial sığorta ödəmələrinin həyata keçirilməsi ardıcıllığını izləyə bilər.

Bağlanan hər bir əmək müqaviləsi işəgötürən tərəfindən ƏƏSMN-nin Əmək Müqaviləsi Bildirişlərinin Elektron İnformasiya Sistemində müvafiq bildiriş formasında qeydiyyatdan keçirilməklə rəsmiləşdirilir və Elektron İnformasiya Sisteminə daxil edilməyən əmək müqaviləsi hüquqi qüvvəyə minmir. Elektron İnformasiya Sisteminə əmək müqaviləsinin bağlanması barədə məlumatlarla yanaşı, eləcə də gələcəkdə ona tərəflərin qarşılıqlı razılığı ilə dəyişikliklər edilməsi və ya əmək müqaviləsinə xitam verilməsi barədə məlumatlar da daxil edilir və bu barədə bildirişlər işəgötürən tərəfindən işçiyə verilir. Elektron imza almaqla və ya müvafiq qaydada qeydiyyatdan keçməklə işçi bu bildirişləri Elektron İnformasiya Sistemindən sərbəst surətdə əldə edə və ya öz əmək münasibətləri ilə bağlı məlumatlarla günün istənilən vaxtında bir daha tanış ola bilər. Bunun üçün «Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi» e-xidmətindən istifadə olunur.

Xatırladaq ki, Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi bu ilin iyun ayında BMT-nin ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) «Çempion layihə» mükafatına layiq görülüb. Bununla da həmin sistem 193 ölkəni, 700-ə yaxın texnoloji şirkəti əhatə edən BTİ tərəfindən İKT-nin tətbiqi üzrə Azərbaycana ilk mükafatı qazandırıb.

# Sənaye məhəllələri qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır

***Azərbaycan Prezidenti İlham Əliyev kiçik və orta sahibkarların sənaye sahəsində fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Sabirabad Sənaye Məhəlləsinin yaradılması haqqında sərəncam imzalayıb.***

Sərəncamda bildirilir ki, Sabirabad Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılmalı və fəaliyyətinin təşkili və tənzimlənməsi «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyətinə həvalə olunmalıdır.

Nazirlər kabineti Sənaye Məhəlləsinin fəaliyyəti üçün Sabirabad rayonu ərazisində 20,3 hektar torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilərək sənaye təyinatlı torpaqlar kateqoriyasına keçirilməsini iki ay müddətində təmin etməlidir.

İqtisadiyyat Nazirliyinə isə Sabirabad Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su təchizatı, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını, eləcə də məhəllənin işinin təşkilini və tənzimlənməsini, o cümlədən iştirakçıların dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün, Sərəncamdan irəli gələn digər məsələlərin həll edilməsi tapşırılıb.

Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənayenin inkişafı istiqamətində də böyük işlər görülüb, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. Rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, yeni iş yerləri açılıb.

Qeyri-neft sənayesinin inkişafına mühüm təsir göstərəcək sənaye məhəllələrinin yaradılması da bu gün diqqət mərkəzində saxlanılır.

Millət vəkili Azər Badamov bildirib ki, ölkə iqtisadiyyatının qeyri-neft sektorunun lokomotivi ölkənin sənayeləşdirilməsidir: «Sənayeləşmə ilə bağlı bir çox islahatlar həyata keçirilib, proqramlar icra olunub, sənaye zonalarının və sənaye məhəllələrinin açılması prosesi sürətləndirilib.

Bir müddət əvvəl Neftçala sənaye məhəlləsinin açılışı oldu. Burada 10-dan çox müəssisə istifadəyə verildi ki, bu da dövlət dəstəyi ilə regionlarda orta və kiçik sahibkarlığın inkişafına verilən ən böyük töhfədir. Hazırda Masallı və Hacıqabul sənaye məhəllələrinin tikintisi davam etdirilir. Dövlətin qeyri-neft sektorunun inkişafı istiqamətində irəli sürdüyü siyasət çərçivəsində Azərbaycanın bütün regionlarda sənaye məhəllələri yaradılmalıdır. Növbəti addım Prezident İlham Əliyev tərəfindən Sabirabadda açılışı nəzərdə tutulan sənaye məhəlləsi ilə bağlı imzalanan sərəncamdır.

Ölkə başçısı sərəncamda sənaye məhəlləsinin yaradılmasına torpaq sahəsinin ayrılması, daxili və xarici inrastrukturun təmin edilməsi, sənaye məhəlləsində yaradılacaq müəssisələrin istiqamətinin müəyyən edilməsi ilə əlaqədar qurumlara konkret tapşırıqlar verib».

A.Badamovun sözlərinə görə, sənaye məhəlləsinin üstünlüyü ondadır ki, həmin ərazidə fəaliyyət göstərəcək sahibkarlar üçün bütün şərait dövlət vəsaiti hesabına yaradılır. Bundan əlavə, sənaye məhəlləsində işləyəcək sahibkarlar üçün xüsusi güzəştlər nəzərdə tutulur ki, bu da regionlarda sahibkarlığın müasir əsaslarla inkişafına dövlət dəstəyi deməkdir: «Sənaye məhəllələrinin yaradılması həm regionlarda işsizliyin aradan qaldırılmasını sürətləndirəcək, həm də yerli xammalın səmərəli və itkisiz istifadəsinə imkan yaratmaqla ölkənin tələbatını ödəyərək ixrac yönümlü məhsulların istehsalına imkan yaradacaqdır. Ölkədə həyata keçirilən iqtisadi islahatlar iqtisadiyyatın dinamik inkişaf tempini qoruyub saxlayır və bu, alqışlanmalıdır».



> **Sənaye məhəlləsinin əsas üstünlüyü ondadır ki, həmin ərazidə fəaliyyət göstərəcək sahibkarlar üçün bütün şərait dövlət vəsaiti hesabına yaradılır**

**Fəxriyyə İKRAMQIZI**

# Özəlləşdirmə prosesində innovativ yeniliklər

***Bakıda keçirilən «Daşınmaz əmlak, özəlləşdirmə və investisiyalar» mövzusunda beynəlxalq konfransın məqsədi daşınmaz əmlak idarəçiliyi və özəlləşdirmə, o cümlədən ölkəmizdə daşınmaz əmlak bazarının formalaşdırılması sahəsində xarici ölkələrin aidiyyəti dövlət, qeyri-hökumət və özəl qurumları ilə əlaqələrin qurulması olub. Konfransda 14 ölkədən dövlət qurumlarının, xarici dövlətlərin səfirliklərindən, beynəlxalq təşkilatların, yerli və xarici qurumların 100-dən çox nümayəndəsi iştirak edib.***

Konfransda çıxış edən Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov bildirmişdir ki, ölkədə aparılan iqtisadi islahatlar fonunda daşınmaz əmlak idarəçiliyi və özəlləşdirilmə sahəsində mühüm tədbirlər reallaşdırılıb. İndiyədək minlərlə dövlət müəssisəsi, on minlərlə obyekt uğurlu özəlləşdirmə nəticəsində sahibkarların mülkiyyətinə keçmişdir: «Özəlləşmə prosesinin müasir yanaşmalar əsasında həyata keçirilməsi, əmlak idarəçiliyində modern üsulların tətbiqi, bu sahədə şəffaflığın maksimum artırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür». Qeyd olunmuşdur ki, modern idarəetmə standartlarının, innovativ yanaşmaların tətbiq edildiyi özəlləşmə sahəsində də proses modernləşdirilir, elektron müstəviyə keçid genişləndirilir. Bu baxımdan, daşınmaz əmlak və torpaq idarəçiliyini, özəlləşdirmə proseslərini əhatə edən 36 elektron xidmət əhalinin istifadəsinə verilmişdir: «Hazırkı mərhələdə özəlləşdirilən dövlət əmlakı müstəqil qiymətləndiricilər və məsləhətçilər cəlb olunmaqla bazar prinsipləri əsasında qiymətləndirilir, açıq hərraclar və investisiya müsabiqələri vasitəsilə özəlləşməyə çıxarılır. Özəlləşdirilmə prosesində şəffaflığın daha da artırılması, potensial yerli və xarici investorlar üçün optimallığın və informasiya təminatının genişləndirilməsi məqsədilə yaradılmış «Özəlləşdirmə portalı» vasitəsilə özəlləşməyə çıxarılan dövlət əmlakı barədə bütün iqtisadi və maliyyə göstəricilərini özündə ehtiva edən geniş spektrlı məlumatlar təqdim olunur. Portala baxış sayı artıq 1 milyonu ötmüşdür. İctimaiyyətin, media nümayəndələrinin sərbəst iştirakı ilə müasir yanaşmalar əsasında keçirilən 60-a yaxın hərracda 1400-dən artıq dövlət əmlakı özəlləşməyə çıxarılmışdır. Özəlləşdirmə sahəsində innovativ yenilik, xüsusi model olan «Elektron hərrac» istifadəyə verilmişdir. Artıq özəlləşmə ilə bağlı hərraclarda iştirakçı statusu əldə etmək və prosesdə əmlaka sahib olmaq prosedurları onlayn rejimdə və elektron qaydada həyata keçirilir. Digər innovativ yeniliklərdən biri də hərrac prosesini internet resursları üzərindən canlı rejimdə izləmək imkanının yaradılmasıdır. Daşınmaz əmlakın qeydiyyatı sahəsində də vətəndaşlara göstərilən ictimai xidmətlərdə əlçatanlıq artırılmış, xidmətlərdən istifadə məmnunluğu, şəffaflıq prinsipləri təmin olunmuşdur. Bu baxımdan, qeydiyyata sərf olunan müddət azaldılmış və prosedurlar sadələşdirilmişdir».

Bildirilmişdir ki, yaxın perspektivdə Azərbaycanda iri müəssisələrin də özəlləşdirilməsi nəzərdə tutulur və bu prosesə xarici investorların cəlb olunması mühüm əhəmiyyət kəsb edir. Maşınqayırma, metallurgiya, dəzgahqayırma, cihazqayırma, kimya, yeyinti məhsulları, kənd təsərrüfatı, yüngül sənaye, səhiyyə, mədəniyyət, idman və turizm sektorlarında özəlləşdirmə sahəsində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Bu sahədə ən əlverişli investisiya mühitinin yaradılması baxımından, özəlləşdirilən müəssisələrin dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına olan borclarının silinməsi və digər imtiyazlar müzakirə edilir.

Diqqətə çatdırılmışdır ki, hazırda torpaq fondunun elmi əsaslarla idarə edilməsini şərtləndirən, torpaqlar haqqında müfəssəl məlumatları özündə cəmləşdirən Torpaqların Elektron Kadastr Uçot İnformasiya Sistemi yaradılır. Artıq respublikanın 12 rayonu üzrə torpaqların elektron kadastr uçotu yekunlaşmış, bu regionların relyef, bələdiyyə xəritələri hazırlanmış, torpaqların keyfiyyət göstəriciləri əsasında bonitirovka və iqtisadi qiymətləndirilmə bazası yaradılmışdır.

Tədbirdə Milli Məclisin komitə sədri Ziyad Səmədzadə, Belarus Respublikası Dövlət Əmlak Komitəsinin sədri Andrey Qayev, Dubay Daşınmaz Əmlak Departamentinin Daşınmaz Əmlak üzrə İnvestisiyaların İdarəedilməsi və Təşviqi Mərkəzinin baş direktoru Məcid Saqer Al-Marri öz çıxışlarında konfransın əhəmiyyətini vurğulamaqla yanaşı, rəy və təkliflərini konfrans iştirakçılarının diqqətinə çatdırmışlar.

> Yaxın perspektivdə Azərbaycanda iri müəssisələrin də özəlləşdirilməsi nəzərdə tutulur və bu prosesə xarici investorların cəlb olunması mühüm əhəmiyyət kəsb edir

**AYTƏN**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Dekabrın 5-də Bakı Ekspo Mərkəzində informasiya və kommunikasiya texnologiyaları sahəsi üzrə ən böyük ixtisaslaşmış tədbir - «Baku-Tel-2017» XXIII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransı işə başlayıb.

«Made in Azerbaijan» brendinin təşviqi məqsədilə növbəti ixrac missiyası dekabrın 6-8-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində olacaq.

Azərbaycan «B.EST Solutions» - «ASAN İmza» texnologiyası ilə Milli Mobil İdentitetlərin Qlobal İttifaqının həmsədri seçilib.

Bu ayın sonunda İran Astarasında Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 12-ci iclası keçiriləcək.

Yaponiyanın Fukuoka şəhərində «Cross Border Club» şirkətinin təşkilatçılığı ilə Azərbaycanın iqtisadi uğurları barədə biznes seminar keçirilib.

Dekabrın 8-də Milli Təbliğat Turizm Bürosu tərəfindən Ukraynanın paytaxtı Kiyev şəhərində Azərbaycanın turizm potensialının təqdimatı və təbliğatı məqsədilə seminar və işgüzar görüşlər təşkil olunacaq.

Azərbaycan Avropa İttifaqında tətbiq edilən Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə qoşulacaq.

Sumqayıt Kimya Sənaye Parkında tütün məmulatları istehsal ediləcək.



# İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000 manatdan 10.000 manatadək** miqdarda cərimə və ya **3 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.<br><br>**3 ildən 7 ilədək** müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ




## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Azərbaycan Respublikasının Vergilər Nazirliyi vergi orqanlarında işə qəbulla bağlı müsabiqə

## ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka yalnız aşağıdakı ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar:

1. Hüquqşünaslıq;
2. Beynəlxalq hüquq;
3. Maliyyə;
4. İqtisadiyyat;
5. Statistika;
6. Beynəlxalq iqtisadi münasibətlər;
7. Mühasibat uçotu və audit;
8. Maliyyə və kredit;
9. İqtisadiyyatın tənzimlənməsi;
10. Əməyin iqtisadiyyatı və sosiologiyası;
11. İqtisadi kibernetika;
12. Qiymət və qiymətin əmələ gəlməsi;
13. Xəzinə əməliyyatlarının uçotu;
14. İqtisadi nəzəriyyə;
15. Vergilər və vergitutma;
16. Sığorta işinin təşkili;
17. Milli hesablar sistemi;
18. Qiymətləndirmə (sahələr üzrə);
19. Qiymətli kağızlar;
20. İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarəedilməsi (sahələr üzrə);
21. Aqrar istehsalatın iqtisadiyyatı və idarəedilməsi;
22. Ticarət və istehlak kooperasiyasının iqtisadiyyatı və idarəedilməsi;
23. Gömrük işinin təşkili;
24. İqtisadiyyatın hüquqi tənzimlənməsi;
25. Vergi işinin təşkili və idarə edilməsi;
26. Tətbiqi riyaziyyat;
27. İnformatika;
28. İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi;
29. Maliyyə nəzarəti və audit.

MBA proqamı üzrə yuxarıda qeyd olunan ixtisaslardan fərqli ixtisaslar üzrə təhsil almış namizədlərin ixtisaslarının uyğunluğuna Komissiya tərəfindən baxılaraq qərar verilir.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında **xidmətə qəbul oluna bilməz:**

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

**Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəcilə 05.12.2017-ci il saat 10:00-dan 20.12.2017-ci il saat 24:00-dək həyata keçirilir.** Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın, ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada fayl şəklində əlavə edilməlidir. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Namizədin ərizəsinə qəbul edildikdən 5 gün ərzində baxılır, ərizə qəbul olunarsa namizədin iş nömrəsi və sınaq imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat verilir. Ərizə göndərilən müddətdən 5 gün ərzində elektron poçt ünvanına heç bir məlumat daxil olmayan vətəndaşlar elanda qeyd olunmuş telefon nömrəsi vasitəsilə əlaqə saxlamalıdırlar.

Namizədlər internet vasitəsilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda **012-403-81-35** nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

**Elektron ərizə vermiş namizədlər 24-26.01.2018-ci il tarixdə (saat 10:00-dan 18:00-a dək) imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər.** Müsabiqənin test imtahanı mərhələsi 28.01.2018-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı 30.11.2017-ci il tarixdə Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdirilib.

Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan namizədlərə üstünlük verilir. Namizəd ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

**Müsabiqədə müvəffəqiyyət qazanan, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.**

# 2017-ci ilin dekabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin noyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən

**cari ilin dekabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq alqı-satqı müqaviləsini təsdiqləyən notarius tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2017-ci ilin noyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik – növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 4-cü rüb üzrə bəyannaməni yanvar ayının 22-dən gec olmayaraq təqdim edirlər).
- **Xüsusi notariusların 2017-ci ilin noyabr ayı üzrə hesabladığı gəlir vergisi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (4-cü rüb üzrə bəyannamə yanvar ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin dekabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin dekabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# «Elektron imza» texnologiyası təqdim olunub

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin marketinq şöbəsinin müdiri Ceyhun Məmmədov jurnalistlərə açıqlamasında bildirib ki, «Bakutel-2017» sərgisi çərçivəsində vətəndaşlara «elektron imza» texnologiyası təqdim edilib. Bu imzadan gələcəkdə hansı sahələrdə istifadə ediləcəyi barədə əlavə məlumat veriləcək.

Nazirlik rəsmisinin sözlərinə görə, sonrakı mərhələdə «Açıq hökumət» məlumatları portalı təqdim ediləcək. Bu portalda məlumatların sayı əvvəllər 5 idisə, hazırda onların sayı 650-dən çoxdur. Bu məlumatlar digər qurumlarla birgə əldə olunub. Hətta «Startup» layihəsi ilə bağlı müsabiqə də keçirilib və sərgidə onun qalibləri mükafatlandırılacaq: «Bundan başqa, hər il olduğu kimi, biz «Elektron hökumət» portalının xidmətlərini də vətəndaşlarımıza təqdim edirik. Portalda artıq 700 min istifadəçi var. Eyni zamanda, portala 40 yeni xidmət əlavə olunub. Bunlardan ən əsası «güzəştli mənzil sistemi» ilə bağlıdır. Həmçinin, sərgidə nazirliyin çağrı mərkəzinin xidmətləri də təqdim olunur. Bir çox qurumların vahid çağrı mərkəzi burada fəaliyyət göstərəcək».

# Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## «Real»ın müdafiəçisi vergidən yayındığını etiraf edib

Son vaxtlar dünyanın futbol ulduzları haqqında vergi qalmaqalları ilə bağlı xəbərlər çox tez-tez yayılır. Bu günlərdə Madridin «Real» klubunun braziliyalı müdafiəçisi Marselonun da adı gündəliyə gətirilmişdir. O, məhkəmə qarşısında vergidən yayındığını etiraf edərək 500 min avro məbləği kompensasiya kimi ödəməyə hazır olduğunu bildirmişdir. Mətbuatın yazdığına görə, futbolçunun məhkəməsi cəmi 10 dəqiqə çəkmişdir. Onu cinayət sxemi yaratmaqda ittiham edirlər. Həmin sxemin vasitəsilə Marselo iki il ərzində - 2011-ci ildən 2013-cü ilədək vergidən yayınmaq məqsədilə imic hüquqlarının satışından əldə etdiyi gəlirlərini gizləmişdir.

## İnkişaf etməkdə olan ölkələr üçün fəaliyyət planı

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Qlobal Forumu inkişaf etməkdə olan ölkələrə kömək üçün vergitutma məqsədi daşıyan maliyyə hesabatlarına aid informasiyanın avtomatik mübadiləsi üzrə fəaliyyət planını hazırlayıb təsdiq etmişdir. Plana əsasən, inkişaf etməkdə olan ölkələrə Hesabatlılığın Ümumi Standartının (vergi informasiyasının avtomatik mübadiləsi üzrə OECD-nin yeni standartının) tətbiqi ilə bağlı öz potensialının ilkin qiymətləndirilməsini aparmaq təklif edilmişdi. Yeni standart vergi qanunvericiliyinə əməl edilməsi üçün görülən işləri dəstəkləmək məqsədilə ölkələrin xarici vergi ödəyicilərinə aid maliyyə məlumatlarının hər il avtomatik şəkildə ötürülməsini nəzərdə tutur.

Fəaliyyət planı inkişaf etməkdə olan ölkələrə Qlobal Forumun katibliyindən məsləhət almaq üçün əlaqə saxlamağa imkan yaradır. Onlara digər beynəlxalq təşkilatlarla və üzv ölkələrlə əməkdaşlıq aparmaqda yardım üçün də texniki kömək göstəriləcək.

Mərhələli yanaşma informasiyanın Yer kürəsinin istənilən guşəsində avtomatik mübadilə edilməsinə şərait yaratmaq üçün nəzərdə tutulmuşdur. 2017-ci ildə 49 yurisdiksiya informasiyanı avtomatik şəkildə mübadilə etməyə başlamışdır, 53 yurisdiksiya isə 2018-ci ildən mübadiləyə qoşulmağa hazırdır.

Qlobal Forum inkişaf etməkdə olan ölkələrdə öz fəaliyyət planını həyata keçirmək üçün beynəlxalq inkişaf agentliklərini, hökumətləri, vətəndaş cəmiyyəti qurumlarını və digər maraqlı tərəfləri hərtərəfli kömək göstərməyə çağırmışdır.

## Britaniyada maliyyə sektoru on ilin vergi rekordunu vurub



Son maliyyə ili ərzində Böyük Britaniyanın maliyyə sektoru büdcəyə 72,1 milyard funt sterlinq (163,8 milyard manat) vergi ödəmişdir ki, bu da əvvəlki illə müqayisədə 1 faiz çoxdur. Beləliklə, bu sahə dövlət xəzinəsinə vergi ödəməkdə 10 ilin rekordunu vurmuşdur.

«PwC» konsaltinq şirkətinin hazırladığı hesabatda qeyd edilmişdir ki, bütün vergi daxilolmalarının tərkibində maliyyə sektorunun payı 11 faiz təşkil edir - təkcə məşğulluq üzrə vergi dövlət xəzinəsinə 31,4 milyard funt sterlinq (71,3 milyard manat) vəsait gətirmişdir.

«Breksitin yaxınlaşması ilə Britaniya iqtisadiyyatında maliyyə xidmətlərinin necə mühüm yer tutduğunu demək artıqdır, - London Şurasının korporativ siyasət departamentinin rəhbəri Ketrin MakGinnes demişdir. - Şirkətlərin öz bizneslərini Britaniya ərazisindən kənara çıxaracaqları halda, vergi sisteminin bundan hansı zərərlər görəcəyini indidən təsəvvür etmək çətindir. Lakin mövcud rəqəmlər göstərir ki, Breksit barədə danışıqlar çərçivəsində maliyyə sektorunun aktual tələblərinin yerinə yetirilməsi nə dərəcədə həyati əhəmiyyət daşıyır».

«PwC» şirkətinin araşdırmasında göstərilmişdir ki, maliyyə xidmətləri ilə məşğul olan şirkətlərin ödədikləri korporativ verginin məbləği 8,4 milyard funt sterlinqdən (19 milyard manat) 11,6 milyard funt sterlinqə (26,4 milyard manat) çatmışdır.

## BVF Avstraliyaya vergi islahatı aparmağı tövsiyə edib

Beynəlxalq Valyuta Fondunun (BVF) hesabatında Avstraliyanın vergi sisteminin səmərəliliyinin artırılması üçün hərtərəfli vergi islahatı aparmağın böyük potensiala malik olduğu bildirilmişdir. Hökumətin son zamanlar kiçik və orta müəssisələrdən tutulan vergi dərəcələri ilə bağlı apardığı islahatlar və bütün müəssisələr üçün vergilərin azaldılması səyləri hesabatda müsbət qiymətləndirilmişdir. Qeyd edilmişdir ki, «daha əhatəli vergi islahatı» səmərəliliyi xeyli artıra, investisiyaları cəlb edə, işçi qüvvəsinə tələbat yarada, eləcə də vergi sahəsindəki bərabərsizliyi azalda bilər.

BVF ekspertlərinin rəyinə görə, islahat kapitala və işçi qüvvəsinə qoyulan verginin aşağı salınmasını, həmçinin ölkənin torpaq vergisindən və istehlak üçün dolayı vergidən asılılığının azaldılmasını əhatə edə bilər. Qeyd olunmuşdur ki, dövlətin həyata keçirdiyi gerb yığımlarının müxtəlif rejimləri dar vergi bazasına malik olduğuna və yığcamlığın qarşısını aldığına görə, səmərəli deyil. BVF-nin tövsiyəsinə əsasən, gerb yığımı bütün yaşayış və kommersiya obyektlərinə tətbiq ediləcək torpaq vergisinin sistemli rejimi ilə əvəz oluna bilər.

Hesabatda əməkhaqqı artımının aşağı olduğu bir şəraitdə yüksək vergi dərəcələrinin reqressiv xarakterindən narahatlıq ifadə edilmişdir. BVF təklif etmişdir ki, bu problemlər vergi bazasının genişləndirilməsi, vergi güzəştlərinin azaldılması, həmçinin gəlir vergisi üzrə islahatın strukturunun yenidən nəzərdən keçirilməsi yolu ilə həll edilə bilər.

Açıqlamanın yekununda bildirilmişdir ki, iqtisadiyyatı inkişaf etmiş böyük ölkələrdə korporativ verginin dərəcəsinin əhəmiyyətli şəkildə aşağı salınması Avstraliyanı da öz vergi islahatına yenidən baxmağa vadar edə bilər. Qeyd edilmişdir ki, məhsuldarlıq üzrə komissiya mallara və xidmətlərə görə verginin bölüşdürülməsi məsələsini nəzərdən keçirir.

## ABŞ-da vergi islahatından sonra ÜDM-in 3 faizlik artımı şübhə doğurur

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) açıqlamasında qeyd edilmişdir ki, ABŞ-da vergi islahatlarının aparılması biznesdə investisiyaların qoyuluşunun və istehlak xərclərinin artımına stimul yaratmaqla gələn il ölkə iqtisadiyyatının artımına müvəqqəti təkan verəcək. Buna baxmayaraq, məşğulluq sahəsindəki işlərin ləng irəliləməsi 2019-cu ildə genişlənmə templərinin azalması ilə nəticələnəcək.

2018-ci ildə ABŞ-da ümumi daxili məhsul (ÜDM) fiziki şəxslərə və şirkətlərə tətbiq edilən verginin azaldılması sayəsində 2,5 faiz artacaq. 2019-cu ildə isə məşğulluğun ləngiməsi istehlakçı xərclərinə də mənfi təsir göstərəcəyinə görə, ÜDM artımı cəmi 2,1 faiz olacaq.

Qeyd edək ki, OECD-nin proqnozu dövlət xərclərinin və biznesə investisiya qoyuluşunun sürətlənməsinə əsaslanır.

Vergi islahatının ÜDM artımını 3 faizə qaldıracağını vəd edən Tramp Administrasiyasında isə belə hesab edirlər ki, güclü korporativ investisiyalar əmək haqlarının artmasına gətirib çıxarar ki, bu da Federal Ehtiyatlar Sistemini kreditlərə qarşı tələbləri sərtləşdirməyə məcbur edə bilər.

## Hindistan birbaşa vergi qanunvericiliyi variantlarını nəzərdən keçirir

Bu ilin əvvəlində mallara və xidmətlərə vergi tətbiq edilməsi ilə nəticələnən dolayı vergi sisteminin əsaslı islahatlarından sonra hökumət birbaşa vergi sahəsində hərtərəfli vergi islahatı aparmaq niyyətində olduğunu bildirmişdir. Baş nazir Narendra Modi hələ sentyabr ayında qeyd etmişdi ki, yarım əsrdən də çox bundan əvvəl - 1961-ci ildə qəbul edilmiş gəlir vergisi haqqında qanun müasir iqtisadi şərtlər nəzərə alınmaqla yenilənməyə möhtacdır. Maliyyə Nazirliyinin açıqlamasında isə bildirilmişdir ki, bu cür məsələlərlə əlaqəli olan logistika məsələlərinin araşdırılması üçün niyyət qrupu yaradılacaqdır: «Niyyət qrupunun qarşısına qoyulan hədəf birbaşa vergilər barədə müvafiq qanun layihəsinin hazırlanması olacaq və layihədə müxtəlif ölkələrdə tətbiq edilən, ən yaxşı dünya təcrübələri hesab olunan birbaşa vergitutma sistemi, eləcə də ölkənin iqtisadi tələbatları və onunla bağlı digər bütün məsələlər nəzərə alınacaq». Niyyət qrupu altı ay ərzində hökumətə hesabat verməlidir.

## Yunanıstan vergilərin artma sürətinə görə öndədir

Yunanıstan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv olan 35 ölkə arasında vergilərin artım sürətinə görə birinci yerə çıxmışdır: ölkədə son bir il ərzində vergi öhdəliklərinin artımı 2,2 faiz təşkil etmişdir. Vergi yükünün və sosial təminat fondlarına yığımların artım tempini əks etdirən siyahıda Yunanıstandan sonrakı yeri Hollandiya tutur.

Yunanıstanı birinci yerə gətirən əlavə dəyər vergisinin sürətli artımı, eləcə də adalar üçün müəyyənləşdirilmiş vergi güzəştlərinin ləğv edilməsidir.

Mütəxəssislər qeyd etmişlər ki, gəlirlər üzrə vergilər bu istiqamət üzrə liderlər olan Fransadan və İsveçdən xeyli geridədir: həmin ölkələrdə gəlir vergisinin dərəcəsi 75 faizə çatır.

Keçən il Yunanıstanda vergi daxilolmalarının ümumi daxili məhsula nisbəti əvvəlki ilin göstəricisindən - 35,4 faizdən 38,6 faizə çatmışdır. Digər ölkələrdə isə artım orta hesabla cəmi 0,3 faiz olmuşdur.

Ekspertlərin rəyinə görə bu göstəricilərin əldə edilməsi vətəndaşlardan verginin 1 il əvvəlcədən yığılması ilə bağlıdır, reallıqda isə vergi daxilolmalarında əhəmiyyətli dərəcədə azalma olmuşdur.



krossvord

**Yuxarıdan aşağı:** 1.Səlcuqlar dövrünə aid irsi rütbə. Şəmkir rayonunda kənd; 2.Gəmi və təyyarədə sükan; 3.Üz tərəfində burulmuş xovları olan üst paltarlıq yun parça; 4.Almaniyada çay; 5.İt cinsi; 6.Pul vahidi; 9.Azərbaycan müğənnisi, bəstəkarı. Tanınmış xanəndə və pedaqoqun adı; 13. Rusiya, Ukrayna, Belarusda meşə ərazilərində tirlərdən tikilən qədim ev; 15.Təbii ftoridlər sinfindən nadir mineral. Emal və şüşə istehsalında istifadə olunur; 16.İnsanın bədənində olan sümüklərin məcmusu; 17.Ancaq mikroskopla görünə bilən birhüceyrəli orqanizm, bakteriya; 18.Yenidən, bir daha; 20.Subtropik yerlərdə bitən həmişəyaşıl sitrus ağacı və bu ağacın yumurtaşəkilli turşməzə, sarı meyvəsi; 21.İspan rəssamı. Romantizm dövrünün ən parlaq nümayəndəsi.

**Soldan sağa:** 1.Rusiya Federasiyasının Krasnodar diyarında şəhər; 5.Kamboca yaxınlığında, Siam körfəzində ada; 7.Fizikanın bölməsi; 8.Avropa qitəsində göl; 10.Rəngarəng, ala-bəzək; 11.İtaliyanın 1948-ci il Konstitusiyası ilə qismən regional muxtariyyət verilmiş 20 regionundan biri; 12.Azərbaycanın bariton səsli opera müğənnisi, əməkdar artist. Rusiyanın Dövlət Akademik Böyük Teatrın ilk azərbaycanlı solistinin adı; 14.Ağ buğda unundan bişirilən kökə; 19.Uzunqanadkimilər dəstəsinə aid yeganə quş fəsiləsi. Bu fəsiləyə mənsub quşlar arxaya uça bilir; 21.Alıcıya göndərilən və ya buraxılan malların adı, növü, miqdarı, qiyməti yazılmış siyahını göstərən sənəd; 22.Tibet, Monqolustan və Buryatiyada budda rahibi; 23.Avtomobil markası; 24.Min kiloqram; 25.1704-cü ildən Böyük Britaniyaya məxsus Pireney yarımadası sahilində yerləşən ərazi.



Rusiya, Ukrayna, Belarusda meşə ərazilərində tirlərdən tikilən qədim ev

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Paskal; 2.Taverna; 3.Ronin; 4.Ataman; 5.İndiana *(Evans)*; 6.Molla; 7.Qurban *(Qurbanov)*; 13.Diez; 15.Brodvey; 16.Chanel; 17.İndiqo; 18.Barnav *(Antuan)*; 20.Pirey; 21.Pedro. **Soldan sağa:** 1.Paternalizm; 8.Savanna; 9.Diler; 10.Ayran; 11.Alabama; 12.Banda; 14.Damba; 19.Hepbern *(Odri)*; 21.Proza; 22.Nərd; 23.Qijduvan; 24.Ley; 25.Prokofyev *(Sergey)*.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Ən güclü cüdoçuların adları açıqlandı




Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Dekabr ayı üçün nəzərdə tutulan yeni reytinq cədvəlinə görə, Azərbaycan millisinin üzvlərindən Orxan Səfərov (60 kq), Hidayət Heydərov, Rüstəm Orucov (hər ikisi 73 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov (100 kq) və Uşanqi Kokauri (100 kq-dan yuxarı) mövqelərini qoruyublar. Onlar müvafiq olaraq, 2-ci, 4-cü, 2-ci, 11-ci, 7-ci və 23-cü pillədə qərarlaşıblar.

Cüdoçularımız Vüqar Şirinli (60 kq) 3, Nicat Şıxəlizadə (66 kq), Tural Səfquliyev (90 kq) və Elxan Məmmədov (100 kq) hərəyə 1, İrina Kindzerska (78 kq-dan yuxarı) 2 rəqibini özündən irəli buraxıb. Nəticədə idmançılarımız müvafiq olaraq, 30-cu, 7-ci, 17-ci, 4-cü və 7-ci yerə eniblər.

# Şəhriyar Məmmədyarov məsul sınaq qarşısında...

Beynəlxalq Şahmat Federasiyası (FIDE) 2018-ci ildə dünya şahmat tacı uğrunda matçın Londonda keçiriləcəyini açıqlayıb. Matçın təqdimatında hazırkı dünya çempionu Maqnus Karlsen iştirak edib. Gələn il noyabrın 9-dan 28-dək keçiriləcək yarışın mükafat fondu 1 milyon avro təşkil edəcək.




Maqnus Karlsenin rəqibi 2018-ci ilin martında Berlində keçiriləcək iddiaçılar turnirində müəyyən olunacaq. Bu turnirdə Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov, Vladimir Kramnik, Sergey Karyakin, Aleksandr Qrişşuk (hər üçü Rusiya), Levon Aronyan (Ermənistan), Fabiano Karuana, Uesli So (hər ikisi ABŞ) və Din Lijen (Çin) mübarizə aparacaqlar. Artıq matçın rəsmi saytı da işə başlayıb. Təşkilatçılar turnirin rəsmi heşteqini (#LondonPlaysChess) təqdim ediblər.

Xatırladaq ki, hazırkı dünya çempionu 26 yaşlı Maqnus Karlsendir. O, 2013-cü ildə Hindistanın Çennai şəhərində yerli şahmatçı, 15-ci dünya çempionu Vişvanatan Ananda qalib gəldiyi vaxtdan indiyədək bu titulun sahibidir.

# Dünya çempionatının final mərhələsinin qrupları müəyyənləşdi

Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində bu ölkənin ev sahibliyi edəcəyi futbol üzrə XXI dünya çempionatının final mərhələsinin püşkatma mərasimi keçirilib.

Dünya çempionatında iştirak hüququ qazanan 32 komandanın adları dörd səbətə daxil edilib. Birinci səbətə ev sahibi Rusiya, dünya çempionu Almaniya, beşqat dünya çempionu Braziliya, Avropa çempionu Portuqaliya, Argentina, Belçika, Polşa və Fransa, ikinci səbətə İspaniya, Peru, İsveçrə, İngiltərə, Kolumbiya, Meksika, Uruqvay və Xorvatiya milliləri daxil ediliblər. Üçüncü səbətdə Danimarka, İslandiya, Kosta-Rika, İsveç, Tunis, Misir, Seneqal və İran, dördüncü səbətdə isə Serbiya, Nigeriya, Avstraliya, Yaponiya, Mərakeş, Panama, Koreya Respublikası, Səudiyyə Ərəbistanı yığmaları yer alıblar.

Dövlət Kreml Sarayında keçirilən püşkatma mərasimində Rusiya Prezidenti Vladimir Putin, həmçinin mundialın 32 iştirakçı komandasından 30-nun baş məşqçisi də daxil olmaqla, 1300-dən çox qonaq iştirak edib.

Xatırladaq ki, futbol üzrə XXI dünya çempionatının final mərhələsi 2018-ci il iyunun 14-dən iyulun 15-dək Rusiyada keçiriləcək. Oyunların 11 şəhərin 12 stadionunda keçirilməsi planlaşdırılır. Rusiya öz tarixində ilk dəfə futbol üzrə dünya çempionatına ev sahibliyi edəcək. Bundan əlavə, çempionatda ilk dəfə video-təkrar sistemi tətbiq olunacaq.

| PÜŞKATMA BELƏ NƏTİCƏLƏNİB: |
|---|
| **«A» qrupu** |
| *Rusiya, Səudiyyə Ərəbistanı, Misir, Uruqvay* |
| **«B» qrupu** |
| *Portuqaliya, İspaniya, Mərakeş, İran* |
| **«C» qrupu** |
| *Fransa, Peru, Danimarka, Avstraliya* |
| **«D» qrupu** |
| *Argentina, İslandiya, Xorvatiya, Nigeriya* |
| **«E» qrupu** |
| *Braziliya, İsveçrə, Kosta Rika, Serbiya* |
| **«F» qrupu** |
| *Almaniya, Meksika, İsveç, Cənubi Koreya* |
| **«G» qrupu** |
| *Belçika, İngiltərə, Tunis, Panama* |
| **«H» qrupu** |
| *Polşa, Kolumbiya, Seneqal, Yaponiya* |

# Azərbaycanlı UEG-nin prezidenti seçilib



Azərbaycan Gimnastika Federasiyasının baş katibi Fərid Qayıbov Avropa Gimnastika İttifaqının (UEG) prezidenti seçilib. Dekabrın 2-də Xorvatiyanın Split şəhərində Avropa Gimnastika İttifaqının 27-ci konqresi çərçivəsində keçirilən prezident seçkilərində o, daha çox səs yığıb. F.Qayıbov 28 səs toplamaqla bu vəzifəyə digər namizəd - 20 səs toplamış sloveniyalı rəqibini geridə qoyub.

Qeyd edək ki, 2009-cu ildən Avropa Gimnastika İttifaqına fransalı Jorj Gelzek rəhbərlik edir.

## mozaika

texnologiya



# Nəhəng kosmik teleskop hazırlanıb

NASA mühəndisləri «Hubble» kosmik teleskopunu əvəz edəcək nəhəng kosmik teleskopun yığılmasını başa çatdırıblar. Gələn ilin oktyabr ayında kosmosa buraxılışı nəzərdə tutulan «James Webb» Orbital İnfraqırmızı Rəsədxanası (JWST) hazırda test sınaqlarından keçirilir.

NASA-nın ikinci rəhbərinin adını daşıyan JWST teleskopu Yer-Günəş sisteminin «L2 Laqranj» nöqtəsi ətrafında halo orbitində hərəkət edəcək. Avropa Kosmik İttifaqına məxsus olan «Ariane-5» daşıyıcı raketin köməyi ilə Fransız Qvianasının kosmodromundan buraxılışı nəzərdə tutulan «James Webb» teleskopunun əsas xüsusiyyəti onun güzgüsünün seqmentlərdən ibarət olmasıdır. Teleskopun sahəsi «Hubble» teleskopuna nisbətdə yeddi dəfə böyükdür. Jwst.nasa.gov saytının məlumatına görə, bu layihə ilə əlaqədar çəkilən xərclər 10 milyard dollar təşkil edəcək.

JWST kainatın yaranmasından sonra ilk formalaşmış ulduzların işıqlarının tapılması üçün kifayət qədər həssaslığa malik olacaq. Teleskop vasitəsilə astronomlar həm də digər ulduz orbitlərində ekzoplanetlərin kimyəvi tərkibini təyin edə biləcəklər. «James Webb» teleskopunun əsas məqsədi Böyük Partlayışdan (Big Bang) sonra yaranmış ilkin qalaktika və ulduzların işıqlarının alınması, onların formalaşması və inkişafı, planet sistemlərinin yaranması və həyatın mənşəyinin öyrənilməsidir.

təbabət

# İnsan hüceyrələri cavanlaşdırılır

Böyük Britaniyanın Ekseter Universitetinin alimləri insan hüceyrələrinin cavanlaşmasının yeni üsulu olan resveratrol maddəsi tapıblar. Yeni maddə qırmızı şərab, tünd şokolad, üzüm və qaragilənin əsas komponentidir.



Sınağın gedişatında ekspertlər resveratrolun köməyi ilə hüceyrələri aktiv bölünməyə və telomerləri (xromosomların axır hissələri) uzatmağa məcbur edə biliblər. Məsələ ondadır ki, telomerlərin qısalması insan hüceyrələrinin qocalmasının əsas əlamətidir. Hər bölünmədə telomer qısalır və qısalma «qaytarılmayan nöqtələrə» çatanda hüceyrə öz funksiyasını yerinə yetirməyi dayandırır.

Alimlərin yuxarıda təsvir edilən kəşfi onların daha əvvəlki tədqiqatlarına əsaslanıb. Həmin tədqiqatlar zamanı aydın olub ki, splaysinq faktorları adlanan bir sıra zülallar qocalma müddətində «sönür», bunun nəticəsində də hüceyrələr bölünmək imkanını itirirlər. Məlum olub ki, həmin genləri geri qaytarmaq olar. Daxiletməyə isə məhz resveratrol cavab verir.

Ekspertlərin rəhbəri həkim Lorina Harris dəyişmiş hüceyrələri görəndə təəccübləndiyini söyləyib. Onun dediyinə görə, bütün yaşlı hüceyrələr cavanlaşıb. Təcrübə göstərir ki, resveratrollu preparatlar və məhsullardan istifadə yaşlı hüceyrələrin funksiyasının bərpasını təmin edir.

sağlam həyat

# Depressiyaya qarşı itlərdən istifadə ediləcək

Avstriyanın Zaltsburq şəhərində yerləşən «Avstriya Assistent İtlər Mərkəzi» ilk dəfə olaraq depressiyadan əziyyət çəkənlərə yardım məqsədilə xüsusi itlərin təliminə başlayıb.



2016-cı ildən fəaliyyət göstərən və əsasən posttravmatik stress pozuntusu və obsessiv-kompulsiv pozuntudan müalicə alan xəstələri müşayiət edən itlərə təlim verən mərkəz qarşısına daha ciddi məqsədlər qoyub. Xüsusi təlim keçmiş labrador retriver cinsli itlər öz yeni sahibinin rəftar nümunələri və həmçinin qoxusu əsasında məşqlərə cəlb olunur. Beləliklə, sahibinin depressiv epizodlarının «iyini» alan itlər onun diqqətini cəlb edə, əhvali-ruhiyyəsini yüksəltmək üçün oynamağa çalışa və yaranmış vəziyyətdən çıxmasına yardım edə biləcəklər.

Mərkəzin rəhbəri Lukas Handler yeni terapiya istiqamətinin təqdimatı zamanı bildirib ki, aldığı təlimdən asılı olaraq itlər, həmçinin, özünə xəsarət yetirməyə və ya intihara meyilli pasiyentlərin niyyətlərini duya və müxtəlif yollarla (oyun, açıq havaya çıxmaq tələbi və s.) onların diqqətini başqa istiqamətə yönəldə biləcəklər. 1,5-2 illik təlim müddəti və müxtəlif sınaq mərhələləri bitdikdən sonra depressiyaya qarşı itlərin geniş istifadəsi nəzərdə tutulur. Mərkəzdən bildirilib ki, dördayaqlı müşayiətçilərin alış qiyməti üç min avrodan başlayacaq.

Müxtəlif heyvanların, xüsusilə də itlərin antidepressiv təsir imkanları məlum olsa da, onların psixoterapevtiv məqsədlər üçün istifadəsi geniş yayılmayıb.

faydalı

# Vitamin deposu

Xurmanın təxminən 500 növü var və onun vətəni Çin hesab edilir. Ən çox Cənub-Qərbi Asiya, Yunanıstan, İspaniya, Türkiyə, Amerika və Avstraliyada yetişdirilir. XIX əsrin axırlarından etibarən məşhurlaşmağa başlayıb. Azərbaycanda da daha çox cənub bölgəsində, Göyçay, Ağdaş, Zaqatala rayonlarında Şərq xurması növü becərilir. Ondan başqa Qafqaz və Virgen xurması olmaqla daha iki növ yabanı xurmaya da rast gəlinir.



Şərq xurmasının tərkibində 13-16 faiz qlükoza və fruktoza şəkəri, üzvü turşular, yod birləşmələri və digər vitaminlər var. Ümumi zəiflik, qan azlığı, vitamin çatışmazlığı zamanı çox faydalıdır. Ürək-damar xəstəliklərinin müalicəsinə çox müsbət təsir göstərir. Tərkibində olan fosfor beynin tələbatını ödəyir. Mütəxəssislər onun acqarına yeyilməsini məsləhət görmürlər. Xurmanın özü qədər qabığı və tumları da vitaminlərlə zəngindir. Təcrübə göstərir ki, onun meyvələri nə qədər yeyilsə də, kökəlməyə səbəb olmur. Hətta xurmanın tumlarını qurudaraq üyüdəndən sonra kofe kimi dəmləyib içmək çox faydalıdır.

**Müdriklər deyib ki...**



***«Bədbin insan hər bir imkanda çətinlik görür, nikbin insan isə hər bir çətinliyə imkan kimi baxır».***

***Uinston Çörçill (1874-1965)***